www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 avqust 2023-cü il Çərşənbə № 142 (8278) Qiyməti 60 qəpik

**Xəbər**

## Ermənistana qarşı böyük təzminat davamız başlayır - məbləğ...

yazısı səh.9-da

**Gündəm**

### BMT TŞ bu gün "blokada" yalanına görə toplanır - kritik gözlənti



Sərhəd şousunun son akkordu; Ermənistan Azərbaycana qarşı axırıncı "patron"larını atır...

yazısı səh.3-də

### Meşəli cəlladının yayılan fotoları saxtadır iddiası - İrəvanın yeni hiyləsi

yazısı səh.4-də

### Erməni lobbisindən İsrail prezidentinə məkrli müraciət - "Xahiş edirik Bakı ilə..."

yazısı səh.7-də

### Xameneyidən sonrakı İran - Bolton nəyə işarə edir?

yazısı səh.12-də

### Maska rejimi qayıdır? - Dərslər bunu qaçılmaz edəcək, əgər...

yazısı səh.5-də

### Qabil Hüseynli: "Məhkəmə yoluna da baş vuracağam, amma hələ ki..."

yazısı səh.6-də

### "Volt Azərbaycan" şirkətinin fəaliyyəti dayandırıldı?

yazısı səh.11-də

### Böyük Qayıdış: 2026-cı ilin sonuna Ağdam şəhərinin əhalisi 20 mini keçəcək

yazısı səh.13-də

### Qiyamət gününün dəqiq tarixi - Allahın yazısını bəndə necə oxuya bilər - 2 rəy

yazısı səh.15-də

### Elza Seyidcahan: "Uşağına dayə baxacaqsa, onu niyə dünyaya gətirirsən?"

yazısı səh.15-də

# BAKI İSTƏMƏDİYİ MÜHARİBƏYƏ SÜRÜKLƏNİR - GÖZLƏR NYU-YORKDA

İrəvan son sülh şansını da basdırır; Paşinyan devirdiyi hakimiyyətin kursuna qayıdıb; Ermənistan rəhbəri odla oynayır, danışıqlar sıfırlana bilər...



yazısı səh.8-də

## Azərbaycana hibrid müharibə təhdidi - Rusiya, İran və xuntaçılar bir arada

Terrorçuların azğınlıq etdiyi ərazilərimizdə suverenliyimizin bərpasının vaxtı çatıb; hərbi ekspert detallardan danışdı

yazısı səh.7-də



### Vardanyanın "havası və halvası" çalınıb - ya ölüsü çıxacaq, ya da əli qandallı dirisi

yazısı səh.6-da



Seymur Mərdəliyev

### Azərbaycanın Ukraynadakı səfirindən sərt açıqlama - Moskva niyə xoflandı?

yazısı səh.11-də



### Putinin 1 ili qalıb: ya hakimiyyəti, ya da ömrü qırılacaq - kəşfiyyatçıdan ŞOK!

yazısı səh.14-də

yazısı səh. 8 və 9-da

yazısı səh.7-də



## "Nikosayağı" qəzaya düşdü: qolu amputasiya edildi

**Sosial şəbəkələrdə "Nikosayağı" adı ilə tanınan bloger Nicat Mütəllimov qəzaya düşüb.**

Musavat.com xəbər verir ki, bu barədə görüntülər sosial şəbəkələrdə yayılıb. Hadisə Heydər Əliyev prospektində qeydə alınıb. N.Şakirli idarə etdiyi "Porşe" markalı avtomobili ilə TIR-a çırpılıb. Qəza nəticəsində bloger və avtomobildə olan sərnişinlər ağır bədən xəsarətləri alaraq xəstəxanaya aparılıblar.

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin (DYP) baş inspektoru Araz Əsgərli açıqlamasında bildirib ki, qəza nəticəsində bir nəfər - avtomobildə olan Nicat Şakirlinin dostu, Gəncə şəhər sakini, 1996-cı il təvəllüdlü Ruslan Məmmədov ölüb, daha bir nəfər ağır xəsarət alıb. Bundan başqa, hadisə vaxtı yolda hərəkəti tənzimləyən polis əməkdaşını da avtomobil vurub, o, ayağından xəsarət alıb.

TƏBİB-dən verilən məlumatda deyilir ki, xəsarət alanlar - 29 yaşlı Nicat Mütəllimov sağ yuxarı ətrafın dirsəkdən amputasiyası, 23 yaşlı Fəxri Rüstəmov isə sağ əlin kəsilmiş yarası diaqnozu ilə TƏBİB-in tabeliyindəki tibb müəssisələrinə təxliyə olunublar. Hazırda onlara zəruri tibbi xidmət göstərilir.

Bəs sürücü Nicat Şakirlini qəza səbəbi ilə hansı cəza gözləyir?

**Musavat.com "Sfera.az"a istinadən bildirir ki, vəkil Mehman Muradlı ekspertiza rəyindən sonra məsələnin aydınlaşacağını qeyd edib:**

"Sürücü əgər sükanda olarkən içkili vəziyyətdə olubsa, bu zaman onu 5 ildən 8 ilədək azadlıqdan məhrumetmə cəzası gözləyir. Əgər sürücü sükan arxasında içkili olmayıbsa, bu zaman 2 ildən 6 ilədək azadlıqdan məhrum edilə bilər. Ekspertiza rəyindən sonra tətbiq ediləcək cəza arta, yaxud azala bilər".

Vəkil sözügedən hadisə ilə bağlı azadlıqdan məhrumetmə cəzasına alternativ olaraq cərimə tətbiqinin qanunla nəzərdə tutulmadığını da qeyd edib.

## Dünyada ilk - insan ürəyində mikroplastik tapıldı

**Alimlər ilk dəfə qida qablaşdırması və boyalarda istifadə olunan mikroplastik hissəciyi insan ürəyində aşkarlayıb.**

"Medicina" xəbər verir ki, Pekində Ançjen xəstəxanasının həkimləri ürək əməliyyatı keçirmiş 15 xəstənin ürək toxumasından nümunələri təhlil ediblər.

Dəhşətlisi odur ki, mikroplastik bütün nümunələrdə aşkarlanıb.

"Hesab edirik ki, insanlar mikroplastiki tənəffüs yolu və ya qida yolu ilə qəbul ediblər. Lazer vizualizasiyası ilə ürəkdə 10-dan 1000-ə qədər ayrı-ayrı plastik hissəciklər aşkarladıq. Onların miqdarı pasiyentə görə dəyişirdi. Belə deməyə əsas var ki, artıq əksər insanların ürəyinə mikroplastik gedib çıxıb", - deyə tədqiqat müəllifi məlumat verib.

Bu vaxta qədər plastik ağciyər, beyin və qanda aşkarlanmışdı.

Mikroplastik - plastikin 5 mm-ə qədər ölçüdə mini hissəcikləridir. Onlar birincili və ikincili olur, su, qida, hava ilə orqanizmə daxil olur, toxumalarda ilişir.

## Azərbaycan XİN Hindistanı təbrik etdi

**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Hindistanı Milli Günü münasibətilə təbrik edib.**

Musavat.com xəbər verir ki, bu barədə XİN-in X səhifəsində paylaşım edilib.

"Hindistanın Milli Günü münasibətilə Hindistan xalqına və hökumətinə təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq. İkitərəfli əlaqələrimizin genişləndirilməsini səbirsizliklə gözləyirik. Milli bayramınız mübarək!", - paylaşımda qeyd olunub.

# Ermənilərin çirkin "soyqırımı" planı: mülki əhalini qırğına verəcəklər



**Qarabağda separatçıların hərbi texnika topladığı və atəş mövqeləri hazırladığına dair görüntülər yayıldı. Müdafiə Nazirliyinin məlumatında da bildirilir ki, "qanunsuz silahlı birləşmələrin aktivliyi müşahidə edilir, bir neçə yaşayış məntəqəsində müxtəlif təyinatlı döyüş texnikası daşınır, xüsusilə hava hücumundan müdafiə və radioelektron mübarizə vasitələrinin yerləşdirilməsi, mülki əhalinin kütləvi şəkildə silahlandırılması faktları var, planlaşdırılmış şəkildə atəş mövqeləri bir çox hallarda yaşayış evlərinin yaxınlığında yerləşdirilir.**

**Analitik Asif Nərimanlıya** görə, separatçıların döyüşə hazırlaşdığı gözləniləndir. Onlar Azərbaycan Ordusuna qarşı hansısa üstünlük qazana bilməyəcəklərini anlayırlar, lakin məsələ hərbi üstünlük qazanmaq yox, mövcudluqlarını qorumaq üçün qarşıdurmaya getmək, reinteqrasiya perspektivinin qarşısını eskalasiya ilə almaq və mülki əhalini qırğına verərək, Azərbaycanı "soyqırımı"nda ittiham etməkdir:

"Hazırlığın indi - Ermənistanın "Qarabağdakı "humanitar fəlakət" məsələsini" BMT Təhlükəsizlik Şurasında müzakirəyə çıxarmaq istədiyi vaxt başlaması təxribat hücumlarına nə vaxt başlaya biləcəklərinə dair ehtimalları ön plana çıxarır: birinci ehtimal - 16 avqust: BMT TŞ-də Qarabağla bağlı müzakirə bu tarixdə baş tutacaq və həmin gün qarşıdurma yaradaraq, Bakı "ermənilərə qarşı soyqırımı edir" iddiasını da müzakirələrə daxil etməyə çalışa bilərlər;

İkinci ehtimal - 16 avqustdan sonrakı günlər: Ermənistan və separatçılar BMT TŞ-də müzakirələrə son ümid olaraq baxır, lakin nəticə əldə edə biləcəkləri sual altındadır; Ermənistan mediasında da "BMT TŞ-də nəticə əldə edilməsə, hansı addım atılacaq" yönündə müzakirələr gedir və aydındır ki, Ağdam-Xankəndi marşrutunu arxa plana keçirmək və reinteqrasiyanı gündəlikdən çıxarmaq məqsədilə hərbi eskalasiya son seçimləri olacaq;

Müdafiə Nazirliyinin məlumatı da təsdiq edir ki, atəş mövqeləri yaşayış evlərinin yaxınlığında qurulur, mülki əhali silahlandırılır. Bu, məhz Azərbaycan Ordusunun mümkün təxribata qarşı cavab tədbirləri zamanı mülki əhalinin zərər görməsinə hesablanmış addımdır və mülki əhalini qırğına verməklə "soyqırımı" iddialarını aktuallaşdırmaq, beynəlxalq müdaxiləyə zəmin yaratmaq istəyirlər".

## Bu gün Bakıda 35-39° isti olacaq

**Avqustun 16-da gözlənilən hava şəraiti açıqlanıb.**

Musavat.com Milli Hidrometeorologiya Xidmətinə istinadən xəbər verir ki, sabah (bu gün-red.) Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər zəif duman olacaq. Cənub-şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 23-26° isti, gündüz 35-39° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 70-80 %, gündüz 40-50 % olacaq.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz olacaq. Lakin Böyük Qafqaz zonasının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 22-26° isti, gündüz 36-41° isti, dağlarda gecə 16-21° isti, gündüz 26-31° isti olacaq.

## Rusiya 100-ə yaxın tacik məhkumu Ukraynaya döyüşə göndərib

**Rusiya həbsxanalarında cəza çəkən 100-ə yaxın Tacikistan vətəndaşı Ukrayna müharibəsinə göndərilib.**

Musavat.com xarici mediaya istinadla xəbər verir ki, bu barədə Tacikistanın daxili işlər naziri Ramazon Rahimzoda bəyanat yayıb.

Nazir bildirib ki, Rusiya bu məsələ ilə bağlı Tacikistana məlumat vermir və ölkələr arasında belə məlumatların mübadiləsinə dair razılaşma yoxdur. Açıqlamada müharibəyə göndərilən vətəndaşların taleyindən söz açılmır.

Yerli media qeyd edir ki, Tacikistanda bir məmur ilk dəfədir ki, Rusiya Federasiyasında məhkum olunmuş və Rusiya ordusuna cəlb edilmiş ölkə vətəndaşlarının təxmini sayını açıqlayır.

Bundan əvvəl beynəlxalq media Orta Asiya respublikalarından olan və Rusiya tərəfindən Ukraynadakı müharibə qatılan ən azı 93 vətəndaşın həlak olduğunu iddia edən araşdırma dərc etmişdi. Onlardan 19-nun Qırğızıstandan, 34-nün Özbəkistandan və 40-nın Tacikistandan olduğu yazılırdı. Bu şəxslərin hamısının Rusiya həbsxanalarından birbaşa "Vaqner"in sıralarına işə götürüldüyü qeyd olunur.

Tacikistanın hüquq müdafiəçisi Karimjon Yorov yanvar ayında "Current Time" telekanalına açıqlamasında bildirib ki, Rusiya həbsxanalarında olan taciklərdən və onların qohumlarından onları müharibəyə cəlb etmək cəhdi barədə məlumat verən təxminən 200-250 müraciət alıb. Ümumilikdə, onun sözlərinə görə, Rusiyada 10 minə qədər Tacikistan vətəndaşı həbsdədir.

Tacikistanın Əmək, Miqrasiya və Məşğulluq Nazirliyi fevral ayında bildirib ki, Rusiya həbsxanalarında saxlanılan ölkə vətəndaşları Ukraynaya qarşı müharibədə iştirak etmək üçün özləri müqavilə imzalayırlar.



## Bakıda müşahidə olunan tozdan necə qorunmalı?

**"Stansiyalardan əldə edilən məlumatların təhlilləri göstərir ki, Bakı şəhərində hava keyfiyyəti göstəricilərində toz hissəciklərinin miqdarı 1,8 dəfə, dəm qazı 1,7 dəfə normadan çox müşahidə olunub".**

Bunu Milli Hidrometeorologiya Xidmətinin rəisi Nazim Mahmudov dünən Bakı və Abşeron yarımadasının atmosfer havasında müşahidə olunan toz axını ilə bağlı Bizim.media-ya açıqlamasında deyib.

Onun sözlərinə görə, atmosfer havasının keyfiyyəti hər gün Bakı, Sumqayıt və Gəncə şəhərlərində fəaliyyət göstərən avtomatik stansiyalar vasitəsilə yoxlanılır:

"Stansiyalardan gündəlik olaraq atmosfer havasında olan müxtəlif qaz qarışıqları haqqında məlumatlar əldə olunur. Atmosfer havasının keyfiyyətinə dair monitorinqin nəticələri gündəlik olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi səhifələrində yerləşdirilir. Son günlərdə cənub istiqamətli isti hava axınlarının üstünlük təşkil etməsi, yağıntının olmaması havanın keyfiyyət göstəricilərinin, yəni toz hissəciklərinin, çirkləndirici qaz qarışıqlarının normadan yüksək olmasına səbəb olur".

Xəzər Hava Keyfiyyəti Laboratoriyasının müdiri Rövşən Abbasov da havanın toz hissəcikləri ilə çirklənməsinin yüksək səviyyədə olduğunu bildirib:

"Hazırda yay ayları olduğu üçün şəhərdə avtomobillər bir qədər azalıb. Buna rəğmən, Bakıda tozla çirklənmə çox yüksək səviyyədədir. Toz Bakının əsas çirkləndiricisi hesab olunur".

Mütəxəssis qeyd edir ki, tozla çirklənmə həssas qruplar üçün bir qədər təhlükəli ola bilər, xüsusilə də ağciyər xəstəlikləri olan insanlar üçün yaxşı deyil: "Buna görə də günün pik saatlarında maskadan istifadə edilsə, yaxşı olar. Təbii ki, bu, yay aylarında çətindir. Yaxud şəhərdən kənarda dincəlmək olar. Lakin bütün bunlarla yanaşı, Bakının havasına təsir edən əsas amil dəniz və küləkdir. Bu, Bakını bir növ xilas edir".

YENİ MÜSAVAT
N 142 (8278) 16 avqust 2023

# BMT TŞ bu gün “blokada” yalanına görə toplanır - kritik gözlənti

## Sərhəd şousunun son akkordu; Ermənistan Azərbaycana qarşı axırıncı “patron”larını atır, siyasi təhlilçilər deyir ki...

**Ermənistanın Azərbaycanı şantaj etməyə və beynəlxalq birliyin hədəfinə gətirməyə hesablanmış “Qarabağda humanitar böhran”, “soyqırımı” ağlaşması 21-ci günə keçdi. Qarabağda qaldırılan hay-küyə rəğmən, hələ bircə erməni də acından ölməyib. Üstəgəl, Ağdam Xankəndi yolu açıqdır.**



“Yardımları Xankəndinə daha sürətli və səmərəli necə çatdırmaq olar? Əlbəttə, Ağdam-Xankəndi yolu ilə. 44 km-lik Bərdə-Ağdam və 65 km-lik Ağdam-Füzuli 4 zolaqlı avtomobil yollarının tikintisi sürətlə davam etdirilir. Hər iki magistralın sutkada 17 000 avtomobil keçirmə qabiliyyəti var”.

Bunu srağagün Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev “X” sosial şəbəkə hesabında (keçmiş Tvitter) yazıb.

Məsələ də ondadır ki, ac adam üçün nə fərqi, ona qida məhsulları hansı yolla gətirilir, kim gətirir.

“Qarabağ sırf kənd təsərrüfatı rayonudur, burada acından ölmək üçün xüsusi istedad lazımdır. Orada tərəvəzçilik, meyvəçilik, heyvandarlıq inkişaf etdirilir - bu, Leninqrad deyil. Bəli, Xankəndi əhalisinin bəzi hərəkətləri məhduddur, ərzaq və dərman təchizatı üçün xarici mənbəyə malik deyil. Amma bu, Azərbaycanın günahı deyil. Ermənistan indi Qarabağ ermənilərinin "acından ölməsi" ilə bağlı spekulyasiyalar aparır, Xankəndidə sıxıntı yaşandığını iddia edir. Bakı isə cavab verir ki, blokada yoxdur, bütün yüklər Ağdam yolundan keçməlidir".

Bunu **politoloq Zərdüşt Əlizadə** Minval.az-a söyləyib.

**Politoloqa görə, hüquqi baxımdan Azərbaycanın mövqeyi qüsursuzdur:** “Mənəvi baxımdan isə biz erməni lobbi və diaspor təşkilatlarına uduzuruq. Çünki ermənilər Qərbin sevimli övladıdır, onları həmişə müdafiə ediblər, bundan sonra da müdafiə edəcəklər. Amma Azərbaycanın da əlində güclü "kozır"lar var və onlardan istifadə etsə, tərəzinin gözünü öz xeyrinə dəyişə biləcək".

**Bəs hansı “kozır”lardan söhbət gedir?**

**Z.Əlizadə:** “Qarabağ ermənilərinin qondarma rəhbərliyi ilə danışıqlar aparmağın mənası yoxdur. Bu bütünlüklə cinayətkarlardan ibarətdir. Araik (Arutunyan), Samvel (Babayan) və digərləri öz maraqlarını qoruyan cinayətkarlardır. Azərbaycan bütün Qarabağ ermənilərini qane edə biləcək hüquq və imtiyazları açıq şəkildə təklif edə bilər. Qarabağ ermənilərinə heç bir rəsmi status vermədən, bələdiyyə özünüidarəsi çərçivəsində bütün dünya üçün cəlbedici olan özünüidarə qurumları yaradıla bilər. Bununla da bütün dünyaya göstərərdik ki, məqsədimiz "soyqırım" və “etnik təmizləmə” deyil, Qarabağda yaşayan ermənilərin normal yaşayışını təmin etməkdir. Vəssalam".

Bakının yəqin ki, bununla bağlı konkret təkliflər paketi var. Əfsus ki, Qarabağdakı separatçılar Paşinyan iqtidarı ilə birgə Azərbaycana qarşı “blokada” şousunu seçdilər. Ardınca da Ermənistan utanmazcasına BMT Təhlükəsizlik Şurasına (TŞ) müraciət etdi - 30 il qətnamələrini yerinə yetirmədiyi bir quruma. BMT TŞ bu gün “blokada” yalanına görə toplaşacaq.

Beləcə, Ermənistan son “boş” patronlarını atır. Bakı isə səbirlə gözləməkdədir.

**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov** “Yeni Müsavat”a bildirdi ki, Azərbaycanın yaratdığı reallıq hər hansı müstəsnalıqların, istisnaların olmamasını tələb edir. Millət vəkili Azərbaycanda geniş islahatların aparıldığına diqqət çəkdi: “İdarəetmə sisteminin daxilində də islahatlar aparılır. Yeni idarəetmə sistemi təcrübədən keçirilir. İşğaldan azad edilmiş ərazilərdə Prezidentin səlahiyyətli nümayəndələrinin əllərində böyük imkanlar cəmlənir. Digər rayonların icra strukturları ilə müqayisə etsək, fərqliliklər kifayət qədərdir. Hətta cənab Prezident də qeyd etmişdi ki, işğaldan azad edilmiş ərazilərdə istifadə olunan və təcrübədən keçirilən bu sistem gələcəkdə bütün Azərbaycanda tətbiq edilə bilər. Prezident bu barədə konkret fikirlərini söyləyib.

Biz ermənilərin munisipial, insan haqları və hüquqlarını tam şəkildə təmin etməyə hazırıq. Bu yalnız Qarabağa aid olan məsələ deyil. Təhsil hüququ, insan haqlarının qorunması, bələdiyyələrin inkişafı və s. yollarla məsələləri həll etmək olar. Biz Paşinyanın “nöqtə”sinin nəyə səbəb olduğunu, İlham Əliyevin nidasının necə nəticələndiyini gördük. Zaman artıq ümumiləşdirilmiş idarəetmə sisteminin bütün Azərbaycanda tətbiq olunmasını tələb edir".

**S.Seyidov BMT TŞ-nin iclası ilə bağlı da rəy verdi. O hesab edir ki, BMT öz dəyərlərinə sadiq qalacaq:** “Təşkilat beynəlxalq qanunun qorunub saxlanması, pozulduğu halda bərpa olunması, bərpa olunmağa imkan olmadıqda məcburən bərpa edilməsinə məsuldur. Biz illər boyu deklarativ fikirlər səsləndirən təşkilatın o fikirləri reallaşdıra bilmədiyinin şahidi olmuşuq. Sabahkı (bugünkü - red.) müzakirələr bizim üçün əhəmiyyətlidir, çünki bu, sadəcə, Azərbaycanla bağlı məsələ deyil. Bu, ümumiyyətlə, dünyada beynəlxalq qanunun ən ali təşkilat tərəfindən hansı formada təzahür etməsini birbaşa göstərəcək.

İkinci məqam təşkilat daxilində bir-birinə qarşı olan dövlətlərin münasibətləri ilə bağlıdır. Ona görə ki, bu gün dünyanı idarə edən və Təhlükəsizlik Şurasında aparıcı mövqeyə malik olan dövlətlər faktiki olaraq müharibə şəraitindədirlər. Bu isə öz-özlüyündə böyük bir xətadır, ona görə ki, dünyada gedən prosesləri artıq obyektiv şəkildə yox, qarşı-qarşıya alət kimi istifadə etmək cəhdini müşahidə edə bilərik.

Mən müzakirəyə optimist yanaşıram, təşkilat əleyhimizə qərar qəbul edəcək qədər qeyri-obyektivlik göstərə bilməz. Azərbaycanın siyasəti təkcə milli maraqlara deyil, eyni zamanda beynəlxalq qanunların regionda tətbiqi ilə bağlıdır. Bizim siyasətimiz BMT-nin gücünə güc qatdı. Təşkilat əleyhimizə qərar qəbul etsə, özünü anlaşılmaz vəziyyətə salacaq. BMT TŞ-nin həm daimi, həm qeyri-daimi üzvlərinə nəzər saldıqda ziddiyyətli qərarlar verməkdən çəkinən, beynəlxalq qanunu qorumaq naminə çox danışan, əməldə isə az iş görən təşkilat növbəti dəfə özünü mürəkkəb vəziyyətə salmamalıdır. Böyük ehtimalla Ermənistanın təklif etdiyi məsələnin müzakirəsi olacaq, Azərbaycana qarşı olan qüvvələr kəskin reaksiya verəcəklər, lakin nəticədə əleyhimizə qərar qəbul edilərsə, bunun BMT-yə başucalığı gətirəcəyini düşünmürəm".

**Millət vəkili Asim Mollazadənin fikrincə, Ermənistanın məqsədi sülh prosesini ləngitmək, sazişi imzalamamaq, Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanımamaqdan ibarətdir:** “Ermənistan yolları özü bağlayıb. Hərbi cinayətkarlardan ibarət olan müxalifətin qətlə əl atacağından qorxurlar. Daha öncə parlamentdə sülhdən danışanları aradan götürmüşdülər. Hər bir qurumda - BMT, ATƏT, AP-də "genosid" haqqında danışırlar. Məqsəd sülh sazişi ilə bağlı təzyiqlərin qarşısını almaq üçün dünya ictimaiyyətinə yalan məlumat verməyə davam etməkdir".

Bir daha xatırladaq ki, bu gün Nyu-Yorkda BMT Təhlükəsizlik Şurasının (TŞ) iclası keçiriləcək. İclasda Azərbaycanı BMT yanında Daimi Nümayəndəmiz Yaşar Əliyev təmsil edəcək. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə məlumat verib. Ermənistan tərəfdən isə görüşdə xarici işlər naziri Ararat Mirzoyan iştirak edəcək.

❑ **Nigar HƏSƏNLİ, “Yeni Müsavat”**




# SEPAH-dan Türkiyəyə əsassız iddia - “Urmiya gölü...”

**SEPAH-ın “Aşura” korpusunun komandiri Əsgər Abbasquluzadə Urmiya gölünün qurumasında Türkiyəni və Rza xanı günahlandırıb.**

Axar.az xəbər verir ki, o, bu barədə yerli media orqanlarına açıqlamasında bildirib.

SEPAH komandiri Rza xanın Ağrı yüksəkliklərini Türkiyəyə verdiyini, Türkiyənin isə oradan axan suların qarşısında çox sayda bəndlər tikərək Urmiya gölünə su axınının qarşısını aldığını deyib.

Qeyd edək ki, Urmiya gölünə axan çayların qarşısında inşa edilən 100 bəndin hamısı İran daxilindədir və SEPAH tərəfindən inşa edilib.



Həsən Ruhani

# İranın sabiq prezidentinə qarşı cinayət işi açılıb

**İranın sabiq Prezidenti Həsən Ruhaniyə qarşı cinayət işi açılıb.**

APA xəbər verir ki, bu barədə İranın Məhkəmə və Ədliyyə sisteminin sözçüsü Məsud Sətayşi mətbuat konfransında bildirib.

“Həsən Ruhaniyə qarşı din xadimləri üçün xüsusi prokurorluqda müvafiq yurisdiksiya saxlanılmaqla cinayət işi qaldırılıb”, - o qeyd edib.

Həsən Ruhani valyuta bazarındakı pozuntularda və birjaya müdaxilələrdə ittiham olunur.

YENİ MÜSAVAT
N 142 (8278) 16 avqust 2023

# Meşəli cəlladının yayılan fotoları saxtadır? - İrəvanın yeni hiyləsi

## Hüquqşünas: "Həmin fotolar illərdir ortalıqdadır, niyə bir dəfə də olsun çıxıb fotonun saxta olmasını deməyiblər?"

**Ötən ay Laçın postunda ələ keçən Meşəli və Xocalı cəlladı Vaqif Xaçatryan şübhə yox ki, layiq olduğu cəzanı alacaq. Eləcə də Azərbaycan həbsxanalarının çoxdan darıxdığı, bəşəri cinayətlər törətmiş digər ikiayaqlı vəhşilər İrəvan rəsmilərinin cidd-cəhdlərinə rəğmən, gec-tez yaxalanıb mühakimə ediləcəklər.**

Hələliksə ermənilər Vaqif Xaçatryanı guya xilas etmək üçün ən absurd uydurmalara belə əl atır, beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışırlar. Məsələn, Ermənistan ombudsman aparatının hərbi qulluqçuların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi şöbəsinin rəisi Andranik Eqoyan "Sputnik Ermənistan"a müsahibəsində deyib ki, guya Vaqif Xaçatryanın Azərbaycan mətbuatında yayılan fotoşəkilləri əslində tamam başqa bir insanı təsvir edir. Yəni guya saxtadır (özləri saxtakarın ən yekəsi olduqları halda!)

"Azərbaycan media məkanında yayılan bir sıra fotoşəkillər tərəfimizdən toplanıb və təhlil edilib. Çoxlu fotoşəkillər vasitəsilə Azərbaycan dezinformasiya yayır", - deyə Yeqoyan iddia edib. Qeyd edək ki, söhbət ən çox Xaçatryanın yanmış azərbaycanlının meyiti ilə birgə çəkilmiş şəklindən gedir.

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, saxtakarlıq bədnam qonşulamızın köhnə vərdişidir:** "Bütün dünya erməni saxtakarlığından danışır, bunlar da bizi saxtakarlıqda ittiham edirlər. Xaçatryanın həmin fotoları illərdir ki, ortalıqdadır, niyə bu illər ərzində bir dəfə də olsun çıxıb fotonun saxta olmasını deməyiblər? Çünki bilirlər ki, foto saxta deyil, Xaçatryan da illərlə azərbaycanlılara qarşı törətdiyi cinayətləri ilə fəxr edib. İndi isə cavab vermək zamanı çatıb, saxtakarların vay-şivəni qopub".

**Hüquqşünas deyir ki, həmin foto olmasa belə, Vaqif Xaçatryanın digərləri ilə birgə divan tutduğu Meşəli sakinləri sağdır:** "Vaqif Xaçatryanla birgə işləmiş azərbaycanlılar var. Hansılar ki, onun müharibə cinayətlərinin şahidi, zərərçəkənlərdir. Onların verdikləri ifadələr kifayət qədər əsaslıdır və Vaqif Xaçatryanın, onunla birgə Meşəliyə hücum edib qətliam törədən hər bir ermənin mühakiməsinə yol açır".

**"Vaqif Xaçatryan Meşəli kənd sakinlərinə qarşı törədilən soyqırımı cinayətini planlaşdıranlardan biridir".**

**Bunu isə mətbuata vaxtilə Meşəli kəndinə qida məhsulları daşıyan Vəliyəddin Salmanov deyib. O, V.Xaçatryanla birgə Xankəndidə avtobazada çalışdığını bildirib:** "Vaqiflə birgə Xankəndidə yerləşən 2717 nömrəli avtobazada işləyirdik. Yük maşınlarının sürücüləri idik. O, məndən əvvəl orada çalışmağa başlamışdı. Vaqif Xaçatryan sonralar avtobazanın müdiri Maksim Mirzəyanın sürücüsü olub. Bizim Meşəli kəndinə ərzaq aparmağımıza imkan vermirdilər. Badara kəndində yolumuzu kəsirdilər. Elə bu Vaqif Xaçatryanın özü də bizimlə ədavətə girirdi. Onlar hiyləgər millətdir. Tək olanda bizimlə elə rəftar edirdilər ki, sanki dostdurlar. Amma çoxalanda çaqqal kimi özlərini qaniçən kimi aparırdılar".



**Vəliyəddin Salmanov bildirib ki, o vaxt ermənilər Meşəli kəndində giriş-çıxışa maneə törədirdilər:** "Mən sahə polisi ilə birgə kəndə un və digər qida məhsulları daşıyırdım. Sonralar onun da qarşısını aldılar. Vəziyyəti daha da çətinləşdirdilər. Vaqif Xaçatryan kəndə hücum olmazdan bir neçə gün öncə "QAZ-53" markalı yük maşını ilə Meşəli kəndinin ətrafını dolanaraq koordinatları qeyd edib. Hücum ediləcək yolları dəqiqləşdirib. O, kənd sakinlərinə qarşı törədilən cinayəti planlaşdıranlardan biri olub. Onu da bildirim ki, həmin hücuma şərait yaradanlar elə o vaxt orada xidmət edən rusiyalı hərbçilər idi. Onlardan iki əsgər bizim Meşəli kəndində postda duran əsgərlərimizə demişdi ki, ermənilər sizə hücum edəcəklər, xəbəriniz olsun. Yəni onların bu hücumdan xəbərləri var idi, ancaq qarşısını almadılar. Əksinə, erməni quldurlarına silah-sursat verib, onlar tərəfindən döyüşüblər. Mən həmin gün Xocalıda idim. Bizə xəbər gəldi ki, ermənilər Meşəli kəndinə hücum ediblər, o zaman bildim həmin facieni. Vaqif Xaçatryan və onun silahdaşları öz cəzasını çəkəcəklər".

**Vaxtilə kənddə polis kimi xidmət etmiş Zirəddin Salmanov isə kəndlərinin dəfələrlə ermənilər tərəfindən atəşə tutulduğunu deyib:** "Hər an təhlükə yaşanacağını bilirdik. Ona görə də Meşəli kəndinin könüllü özünümüdafiə batalyonu yaradıldı. Mən də həmin batalyonda döyüşmüşəm. Meşəli kəndinə hücum edən silahlı dəstənin başında duranlar Badara kənd məktəbinin direktoru Kasparyan Benik, Armanik, İlya və Vaqif Xaçatryan idi. Bunların hamısının Meşəli kəndində törədilən vəhşiliklərdə əli var".

**O söyləyib ki, ermənilər kəndi tamam mühasirəyə aldıqdan sonra hücuma keçmək istəyiblər:** "Kənd sakinlərinin çoxu düşmənin olmadığı ərazidən çıxa bildi. Yoxsa onların planı kəndi tam mühasirəyə alaraq bütün camaatı qırmaq idi. Biz bir tərəfdən düşmənlə döyüşürdük, digər yandan isə dinc sakinləri xilas etməyə çalışırdıq. Amma təəssüf ki, hamını müdafiə etməyi bacara bilmirdik. Həm silahımız yox idi, həm sayımız az idi. Onlar sürü kimi kəndə hücuma keçmişdilər".

**Şahid vurğulayıb ki, erməni quldurlar Meşəlidə dinc sakinləri qəddarcasına qətlə yetirirdilər:** "Qənimət adında yaşlı kişinin başına avtomat darağının bütün güllələsini boşaldaraq onu qətlə yetirmişdilər. Qönçə adında yaşlı bir qadın var idi. Onun uzun saçı var idi, diri-diri yandırmışdılar. Biz oraya çatanda gördük ki, qadın tamam yanıb. Vaqif Xaçatryan üç nəfərin, iki yeniyetmə bir də yaşlı qadının əl-qolunu bağlayıb maşının yük yerinə qoyub girov aparmışdı. Onlardan biri də mənimlə birgə döyüşərək şəhid olanın qardaşı idi. Sonradan bildik ki, o, yaralı və əlləri bağlı olmasına baxmayaraq, özünü maşından ataraq qaça bilib. Vaqif Xaçatryanın saxlanılması, onun istintaqa cəlb edilməsi bizim üçün təsəllidir. Orada dinc sakinlərə divan tutanlar ən ağır cəzaya layiqdirlər".

"Müharibə cinayətləri, insanlığa və bəşəriyyətə qarşı dəhşətli əməllər törətmiş, soyqırımı və qanunsuz deportasiya həyata keçirən Vaqif Xaçaturyanla bağlı Ermənistan hökumətinin hay-küy salması və beynəlxalq məhkəmələrə müraciəti mənasızdır. Bu, Ermənistanın müharibə cinayəti törədən şəxslərin müdafiəsi üçün atdığı addımların bir hissəsi kimi dəyərləndirilə bilər".

Bu sözləri "Yeni Müsavat"a **hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə** deyib.

**O qeyd edib ki, ermənilər ilk olaraq mülki şəxsin həbs edilməsi kimi bir iddia qaldırırdılar, indi də foto məsələsini ortaya atırlar. Amma unudurlar ki, hələ 2013-cü il noyabr ayının 12-də Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən məhkəmə qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilmiş Vaqif Xaçatryan beynəlxalq axtarışa verilmişdi:** "10 ildir bu adam beynəlxalq konvensiyalarla qadağan edilən müharibə cinayətləri törətdiyinə görə axtarışda olub və qanun qarşısında cavab verməlidir. Son günlər mətbuatda onun cinayətlərinin şahidləri, zərərçəkənlər danışır. Əgər hansısa beynəlxalq təşkilat bunlara rəğmən Vaqif Xaçatryanın müdafiə edilməsinə yönəlik addımlar atarsa, hansısa qərarlar qəbul edərsə, beynəlxalq hüquqa qarşı çıxmış olar".

**Çingiz Qənizadə əlavə edib ki, beynəlxalq hüququn müddəalarına əsasən Vaqif Xaçatryan törətdiyi cinayətlərə görə mühakimə olunmalıdır:** "Beynəlxalq hüquqda Cenevrə Konvensiyası, Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması haqqında Konvensiya var. Bu əməlləri törədənlərin mühakimə edilməsi ilə bağlı müddət qoyulmayıb. Buna görə də cinayətin 31 il öncə törədilməsinə baxmayaraq cinayətkarın bu gün də mühakimə edilməsi tam hüquqi çərçivədədir və Azərbaycan qanunları ilə cəzalandırılacaq".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**



## Dörd yaşlı Əlinin 10 günü qalıb: təcili əməliyyat olunmalıdır

**Dörd yaşlı Əlinin sizin dəstəyinizə ehtiyacı var.**




Bu barədə Oxu.Az-a onun anası Ülkər Abdullayeva məlumat verib.

O bildirib ki, Əli baş-beyin inkişafı qüsuru ilə doğulub.

"Əli 2019-cu ildə dünyaya gəlib, ikinci övladımdır. Hamiləlik dövründə hər şey qaydasında olsa da, doğulandan sonra baş beyinin inkişafdan qaldığını öyrəndik. Əli doğulan ilk gündən müalicələr edilib, amma bu problem düzəlməyib. Son dövrlərdə isə başına su yığılır. Həkimlər Əlinin gələn həftə əməliyyat olunması üçün gün təyin edib".

Ülkər Abdullayeva qeyd edib ki, əməliyyat üçün 8 000 manata ehtiyac var:

"Əməliyyat İranda olmalıdır. Bunun üçün 8 000 manata ehtiyacımız var. Həmin məbləğin 5 000 manatını toplaya bilsək də, 3 000 manatını tapmağa imkanımız yoxdur. Yardımsevər şəxslərdən xahiş edirəm ki, bizə dəstək olsunlar".

Ailə ilə əlaqə: (055) 894-49-75

YENİ MÜSAVAT
N 142 (8278) 16 avqust 2023

**Pandemiya bitsə də, dünyada COVİD-19 narahatlıqları davam edir. İndi də alimlər bəzi ölkələrdə virusun "Omikron" ştamının başqa bir varianti "Eris"in meydana gəldiyini bildiriblər. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) isə bu ştamın artıq dünyanın 51 ölkəsində aşkarlandığını qeyd edib.**

# Maska rejimi qayıdır? - Dərslər bunu qaçılmaz edəcək, əgər...

**ÜST-in Bakı nümayəndəsi:** "EG.5 ştamının Azərbaycanda yayılması mümkündür, çünki..."

**Həkim:** "Hansısa qapanmanın olması ehtimal olunmur, amma..."




Səlahiyyətli şəxslər hazırda bununla bağlı dəqiq məlumat verməyin tez olduğunu bildirsələr də, bu, insanları yeni bir pandemiyanın gözlədiyi həqiqətini dəyişmir. Referans.az Türkiyə KİV-ə istinadən xəbər verir ki, Yunanıstanda Afina-Pire xəstəxanasının həkimləri assosiasiyasının prezidenti Matina Pagonis bildirib ki, "Eris" ştamı COVİD-19-un hələ bitmədiyini və mutasiyaların davam etdiyini göstərir. Hazırda onun simptomları zəif görünür. Ancaq buna baxmayaraq, xroniki xəstəlikləri olanlara və yaşlı insanlara xüsusi qayğı göstərilməlidir. Sosial məsafə kimi tədbirlər həyata keçirilməlidir. Alimlər bu virusun sentyabrda kəskinləşməsindən narahatdır: "Hazırda "Eris"in yavaş-yavaş yayıldığı görünə bilər. Bu, yay tətili və məktəblərin bağlanması ilə əlaqədardır. Ancaq sentyabrda insanlar ofislərə qayıtmağa başlayacaq, məktəblər açılacaq və hava şəraiti səbəbindən daha çox insan qapalı yerlərdə çox vaxt keçirəcək. Bu da öz növbəsində xəstəliyin artmasına səbəb ola bilər".

**"Eris"in simptomları bunlardır: baş ağrısı, halsızlıq, boğazda bəlğəm yığılması, burun axıntısı, boğaz ağrısı, bir-iki gün davam edən yüksək temperatur.**

Qeyd edək ki, "Eris" ştamı xüsusilə turizm kurortlarında yayılıb. Tibb ekspertləri bundan qorunmaq üçün əlləri tez-tez yumağı, antiseptik vasitələrdən istifadəni, lazım olduğu hallarda maska taxmağı, simptomlar yüngül olarsa, evdə qalıb insanlarla ünsiyyət qurmamağı bildirirlər.

**Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan Nümayəndəliyindən "Yeni Müsavat"a mövzu ilə bağlı bildirildi ki, EG.5 ştamı haqqında ilk məlumat bu ilin 17 fevral tarixində verilib və 19 iyuldan yeni ştam kimi nəzarət altındadır:** "EG.5 ştamının yayılma sürəti yüksək olsa da, bu günə qədər xəstəliyin ağırlıq dərəcəsində heç bir dəyişiklik qeydə alınmayıb. Koreya və Yaponiya kimi ölkələrdə EG.5 və COVİD-19 xəstəxanaya yerləşdirmə nisbətində paralel olaraq artım var, lakin bu yeni ştam və xəstəxanaya yerləşdirmə arasında heç bir əlaqə müşahidə edilməyib. Bununla belə, yayılma sürətinə və bəzi xüsusiyyətlərinə görə EG.5 bəzi ölkələrdə və hətta qlobal miqyasda yoluxma hallarının artmasına səbəb ola bilər".

**Qurumdan ""EG.5 ştamının Azərbaycanda aşkar olunması gözlənilirmi" sualına belə cavab verilib:** "Hər bir yeni ştam çox güman ki, hər ölkəyə yayılacaq, çünki biz qlobal dünyada yaşayırıq. Əhəmiyyətli olan, bütün ölkələrin epidemioloji müşahidə fəaliyyətlərini davam etdirmələri, genomik ardıcıllığın müəyyənləşdirilməsini və bu məlumatları ÜST ilə bölüşməsini təmin etməkdir. Bu addımlar vəziyyəti qiymətləndirməyə və müvafiq sübuta əsaslanan tövsiyələr verməyə yardımçı olacaqdır. O ki qaldı insanlar özlərini necə qorumasına, COVİD-19 peyvəndləri xəstəliyin ağırlaşmasına, xəstəxanaya yerləşdirməyə və ölümə qarşı güclü qoruma təmin edir. COVİD-19-un yayılmasının qarşısını almaq üçün qaydalara riayət olunmalıdır.

Belə ki, əllər tez-tez spirt tərkibli dezinfeksiyaedici ilə təmizlənməli və ya sabun və su ilə yuyulmalıdır. Öskürərkən və ya asqırarkən ağzınızı və burnunuzu dirsək büküyü və ya salfetlə örtün. İstifadə edilmiş salfetləri dərhal atın və əllərinizi təmizləyin, kütləvi məkanlardan uzaq durun və məsafə saxlayın, əgər özünüzü yaxşı hiss etmirsinizsə, maskadan istifadə edin. Simptomlar yaranarsa və ya COVİD-19 testi müsbət olarsa, sağalana qədər özünüzü təcrid edin".

**"Ankara" klinikasının baş həkimi Zülfüqar Yusifov mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, bu viruslar COVİD-ə qədər də davamlı şəkildə olub:** "Sadəcə olaraq, əvvəlki ştamların yayılma arealı, bundan əlavə, insan sağlamlığı üçün verdiyi fəsadlar, risklər bir qədər fərqli idi, az idi. Bunlar müəyyən fasilələrdə, zamanlarda olub keçirdi. COVİD insanlar üçün təhlükəyə çevrildi, faciələrə yol açdı. Düşünmürəm ki, yeni virus belə bir həddə çata. Çünki bu tip pandemiyalar on ildən bir, yüz ildən bir baş verə bilir. Əlbəttə, yaşanan acı təcrübə hazırlıqlı olmağa əsas verir. Fikrimcə, hazırlıq da var. Həm tibb müəssisələri, bütün dünyada, o cümlədən bizdə də insanlar pandemiya dönəmində çox ciddi hazırlaşdılar, maarifləndilər. O baxımdan, düşünürəm ki, növbəti virus bu qədər təhlükəli olmaz, yoluxuculuğu da bu qədər çox olmaz. Artıq tibb müəssisələri də, insanlar da daha çox hazırlıqlıdır. Hansısa qapanmanın olması ehtimal olunmur. Amma hər bir varianta da hazır olmaq lazımdır. Bugünkü tibb də buna hazırdır. Biz artıq bu təcrübəni yaşamışıq, profilaktik tədbirləri bilirik. Məsafə saxlamaq, dezinfeksiyaedici məhlullardan istifadə edilməsi vacibdir. İnsanların sıx toplaşdığı ərazilərdə məsafəni saxlamaq lazımdır".

**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov açıqlamasında deyib ki, virusun yeni ştamlarının əmələ gəlməsi onun mutasiyaları ilə əlaqədardır:** "Bu da təbii bir prosesdir və virusun təkamülünün bir mərhələsidir. Təcrübə göstərir ki, ən yeni ştam əvvəlkini yoluxdurma qabiliyyətinə və bununla bağlı yayılma sürətinə görə üstələsə də, ağır xəstəlik törətməsi qabiliyyəti xeyli zəifləyir. Bu ilin fevral ayında ilk dəfə aşkarlanmış koronavirusun "Omikron ştamının yeni alt tipi EG.5 ÜST tərəfindən maraq kəsb edən variant kimi dəyərləndirilib. Hazırda bu statusda olan daha iki variantdan XBB.1.5-in yayılma sayı azalmaqda, digəri isə XBB.1.16-nın səviyyəsi stabil qalmaqdadır. O bildirib ki, dünya əhalisinin əksər hissəsinin peyvənd olunması və infeksiyanın keçirməsi nəticəsində yaranan immunitet bu və ya digər dərəcədə onları qoruyur. "Omikron"un EG.5 variantına maraq məhz son dövrdə bu ştamma yoluxma hallarının sayında olan artımlardır. Belə hal hələ ki, əsasən ABŞ, Avropada və Sakit okeanın qərb hissəsində müşahidə olunur. ÜST rəsmiləri tərəfindən bu tendensiyanın davam edəcəyi və payızda pik həddinə çatacağı və onun dominant ştama çevriləcəyi proqnozlaşdırılır.

Bununla yanaşı, bildirilir ki, ümumi təhlükə səviyyəsi kiçikdir. Belə ki, bəzi ölkələrdə koronavirus səbəbindən hospitalizasiya hallarında cüzi artımlar olsa da, intensiv terapiya bölmələrində belə artımlar qeyd olunmur. Həmçinin COVİD-19-dan ölüm halları azalmaqda davam edir. Beləliklə, yeni ştamın daha ağır xəstəliyə səbəb olmasının heç bir sübutu yoxdur. Daha geniş miqyaslı tədqiqatlarda EG.5 ştamının klinik nəticələrə təsirini öyrənmək tələb olunur.

ÜST tərəfindən tövsiyə olunur ki, dövlətlər bu məsələdə sayıqlığı əldən verməməli, infeksiyanın artımları olan ərazilərdə əhalinin sıxlığı müşahidə edilən qapalı məkanlarda insanların maskadan istifadə etməsi, risk qrupuna daxil olan şəxslərin isə 4-cü buster doza ilə vaksin olunması məqsədəuyğundur. Lakin xüsusi, daha sərt karantin tədbirlərinin tətbiqinə ehtiyac yoxdur. Onu da qeyd edək ki, Azərbaycanda bu məsələ Səhiyyə Nazirliyi və digər aidiyyəti dövlət qurumlarının daim diqqət mərkəzindədir. Ölkəmizdəki mövcud testlər koronavirusu növündən asılı olmayaraq aşkarlamağa imkan verir. Operativ Qərargahın statistik məlumatlarına əsasən, hazırda epidemioloji vəziyyət stabil qalmaqdadır, infeksiyanın yayılma səviyyəsi çox aşağıdır".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

## Ordumuz AB müşahidəçilərinə atəş açıb? - MN



**Avqustun 15-də saat 12:20 radələrində Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi ərazisində guya Avropa Birliyinin müşahidəçiləri və onların avtomobili istiqamətində Azərbaycan Ordusunun bölmələri tərəfindən atəş açılması barədə erməni informasiya resurslarında yayılan məlumat həqiqətə uyğun deyil, qarşı tərəfin növbəti dezinformasiyasıdır.**

Bu barədə Musavat.com-a Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib.

"Bildiririk ki, Avropa Birliyinin müşahidəçilərinin Ermənistanda şərti sərhəd istiqamətində səfərlərinin vaxtı, onların hərəkət marşrutu, ərazidəki koordinatları, eləcə də avtomobillərin markası və nömrə nişanları Azərbaycan tərəfinə əvvəlcədən təqdim edilir. Azərbaycan Ordusunun bölmələri missiyanın səfərləri barədə məlumatlıdır. Bu səbəbdən də Ermənistan Müdafiə Nazirliyinin iddia etdiyi belə bir halın baş verməsi nəzəri və praktiki baxımdan qeyri-mümkündür", - məlumatda qeyd olunub.

# “Məhkəmə yoluna da baş vuracağam, amma hələ ki...”

## Qabil Hüseynli özünə məxsus torpaq sahəsini hələ də geri ala bilməyib



**“Mən ev növbəsi əvəzinə verilmiş Badamdar qəsəbəsindəki 6 sot torpaq sahəsinin başqa birisi tərəfindən mənimsənilməsi, hələ ki mənə qaytarılmamasından Prezidentə, vitse-prezident Mehriban xanıma yazmışam. Ümid edirəm ki, məsələ haqq-ədalətlə həll olunacaq, torpağım mənə qaytarılacaq”.**

Bunu sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli “Yeni Müsavat”a deyib.

Qabil Hüseynliyə məxsus olan, Bakının Badamdar qəsəbəsindəki 6 sot torpaq sahənin zəbt olunmasını haqda yazmışdıq. Həmin torpaq sahəsi ona 1994-cü ildə mərhum prezident Heydər Əliyevin göstərişi ilə ayrılıb. Sonradan həmin torpaq sahəsi Dövlət Yanacaq Komitəsinin keçmiş sədri, Neft Şirkətinin Neft Kəmərləri İdarəsinin sabiq rəisi, YAP-ın Səbayel rayon təşkilatının idarə heyətinin eks-üzvü Rizvan Vahabov tərəfindən zəbt olunub.

Qabil Hüseynli bildirib ki, 6 sot torpaq sahəsi 2003-cü ildə müxtəlif saxta sənədlərlə əlindən alınıb. Həmin saxta sənədlər əsasında torpağı Məmmədov Tahir Yusif oğlunun adına keçirilib.

**Q.Hüseynli torpağın ona aid olmasını təsdiqləyən sənədləri də redaksiyamıza təqdim edib:** “Redaksiyanıza müraciətimdə Rizvan Vahabovun adını çəkməyim təsadüfi deyil. Torpağımın əlimdən alınmasına o himayədarlıq edib və torpağın müxtəlif sənədlərlə əlimdən alınmasına yardım edib. Mənim möhtərəm Prezidentə müraciətimin əsası da odur ki, mərhum prezident Heydər Əliyevin göstərişi ilə mənə ayrılan torpağı saxta sənədlərlə, qanunsuzluqla əlimdən alıblar. Torpağım zəbt olunandan sonra mənə dedilər ki, Məmmədov Tahir Yusif oğlu Rizvan Vahabovun qohumudur. İndi də Rizvan Vahabov yaxasını kənara çəkir. Halbuki həmin torpaq sahəsini mənə ayırarkən eyni sərəncamla Xalq şairi Bəxtiyar Vahabzadəyə, akademik Nizami Süleymanova da elə mənim qonşuluğumda torpaq sahəsi ayrılıb. Mən orada torpağı hasarlamışam, kommunikasiya xətləri çəkmişəm. Mən öz torpağımı, zəbt olunmuş torpağımın mənə qaytarılmasını istəyirəm. Rizvan Vahabov mənə məhkəmə yolunu göstərir. Mən məhkəmə yoluna da baş vuracağam. Amma indi mən Prezidentin ədalətinə sığınaraq ona müraciət etmişəm ki, qoy bu proseslərin araşdırılması onun nəzarəti altında olsun. İstəyirəm ki, saxtakarlıqdan əl çəkib mənim torpağımı qaytarsınlar. 2 aydır ki, bu məsələlər araşdırılır, mənə deyilənə görə, uyğun qərar qəbul ediləcək”.

**Qabil Hüseynli deyir ki, bu məsələdən ölkə rəhbərliyinin məlumatlı olması çox önəmlidir:** “Cənab Prezident məni şəxsən tanıyır, çəkdiyim əziyyətlər barəsində də məlumatlıdır. O torpağın mənə şəxsən mərhum prezident tərəfindən ev növbəsindən çıxmaq şərtilə ayrıldığını da bilir. Bir dərəbəylik şüuruna malik olan birisi torpağımı qamarlayıb. Mən əvvəlcə bu məsələni insani yollarla həll etməyə çalışdım. Lakin o, hər şeyi üstündən atdı, hətta ünvanıma təhqir belə işlətdi. Ən başlıcası budur ki, o adam yalançı yollarla torpağıma saxta sərəncam əldə edib. Hansı ki, torpağın mənə ayrılması haqda orijinal sərəncam mənim əlimdədir. Bununla bağlı digər sənədlər də mənim əlimdədir.

Ümidimi üzməmişəm, ölkə Prezidentinin, vitse-prezidentin humanizminə inanıram. İnanıram ki, onlar məsələdən hali olarlarsa, əsas problem bundadır, çünki məktublarımın Prezidentə çatmasına ciddi əngəllər var. Prezident bu məsələdən məlumatlı olsa, problemin həllinin an məsələsi olacağına əminəm. Ümid edirəm ki, möhtərəm cənab Prezident İlham Əliyevə yolladığım məktuba baxsa, onun göstərişi ilə bu məsələnin ciddi şəkildə araşdırılması aparıla bilər və haqq öz yerini tutar. İnanıram ki, “Yeni Müsavat”da dərc olunan bu yazının əks-sədası Prezidentə çatacaq və o, ədalətin bərqərar olması üçün göstəriş verəcəkdir".

❑ **E.MƏMMƏDƏLİYEV,
“Yeni Müsavat”**

**Məlumdur ki, dələduz erməni milyarder, hazırda Azərbaycan ərazisindəki separatçı rejimin “kölgə” rəhbəri Ruben Vardanyan Azərbaycan Prezidenti İlham Əliyevi övladlarına və nəvələrinə qarşı terrorla hədələyib. “Yeni Müsavat” xəbər verir ki, bu barədə görüntülər Ruben Vardanyanın geniş müsahibəsindən kəsilərək, “X” sosial şəbəkəsində yayılıb.**

# Vardanyanın “havası və halvası” çalınıb - ya ölüsü çıxacaq, ya da əli qandallı dirisi

**Əziz Əlibəyli:** “"Bayraktar"la yer üzündən silinməli və izi-tozu qalmamalıdır"
**Ramiyə Məmmədova:** “Onu elə vurmaq lazımdır ki, tikəsi də tapılmasın”
**Xəzər Teyyublu:** “BMT TŞ Qarabağdakı xunta rejiminin mövcudluğunu iclasa çıxarmalıdır”



Bu, sözsüz ki, həm də Azərbaycanı hədələmək, Azərbaycana meydan oxumaqdır. O da bəllidir ki, Vardanyan Qarabağdakı separatçıların ideoloqu və sponsorudur. Rusiya pasportu daşımağına baxmayaraq, onun beynəlxalq erməni diasporu ilə də ciddi əlaqələri var. Bu baxımdan da Qarabağdakı erməni köpəyi öz hədəsində məhz Fransa işarəsini verir və açıq terror təhdidi ilə çıxış edir.

Azərbaycanın Vətən müharibəsində qələbəsindən sonra böyük məyusluq keçirən və heç bir sahədə revanş hərəkəti alınmayan erməni lobbisi indi Vardanyanın dili ilə Azərbaycan rəhbərini, müzəffər Ali Baş Komandanı terrorla hədələyir.

Şübhə yox ki, Azərbaycan ərazisində qeyri-qanuni olaraq məskunlaşmış və artıq qudurma həddinə gələn Vardanyanın bu açıqlamasından sonra Azərbaycan tərəfindən müvafiq addım atılacaq. Bu açıqlama yetərlidir ki, onun barəsində Rusiyaya istinadla hüquqi prosedur başladılsın. Eyni zamanda konkret bir adama - ölkə rəhbərliyinin ailəsini təhdid edən separatçıya qarşı nöqtə atəşli antiterror əməliyyatı həyata keçirilə bilər.

Bəs bu variantlardan hansı biri seçiləcək? Artıq bütün “qırmızı xətləri” keçən bu erməni iti ilə bağlı Rusiya qarşısında tələb qoyulacaqmı? Qarabağdan qaçması əngəllənəcəkmi? Qarabağdan onun ölüsü, yoxsa əli qandallı dirisi çıxacaq?

**Siyasi ekspert Əziz Əlibəyli “Yeni Müsavat”a bildirdi ki, Vardanyan həmin açıqlaması ilə özünün leqal hədəf olduğunu Azərbaycana bir daha xatırlatmış oldu. Analitikin fikrincə, Ruben terrorçudur və bunu çıxışı ilə də etiraf etmiş oldu:** “Bu halda onun qanunvericilik qarşısında bir lüksü yaranır. Bir cinayətkara şamil edilən hüquqlar ona aid edilə bilər ki, bu açıqlaması ilə də təsdiqlədi. Vardanyan hərbi cinayətkar, terrorçu olduğunu isbat edib. Onun yeganə haqq etdiyi münasibət bir "Bayraktar"la yer üzündən silinməsi və izinin-tozunun qalmamasıdır".

“Azərbaycan ali rəhbərliyini uşaqları və nəvələri ilə hədələyən rus iti Vardanyanın Qarabağdan meyiti çıxarılmalıdır”.

**Siyasi icmalçı Ramiyə Məmmədova** belə deyib.

**Xankəndi təlxəklərinin liderlərindən biri olan “rus desantı”, dələduz milyarder Ruben Vardanyanın Prezidenti təhdid etməsinə münasibət bildirən ekspertin fikrincə, onun başının gülləsi əskikdir. Təhlilçi hesab edir ki, onu məhv etmək ordumuz üçün çətin deyil:** “Vardanyanı elə vurmaq lazımdır ki, tikəsi də tapılmasın. Necə ki, Amerika Bağdadda Qasim Süleymanini partlatdı, Pakistanda bin Ladeni, o cümlədən Bağdadini vurdu, biz də terrorizmlə mübarizədə ölkə başçısına dil uzadan separatçının dilini kəsə bilərik. Yəni heç kim bizə deyə bilməz ki, terroru maliyyələşdirən banditi niyə vurdunuz. Ümumiyyətlə, Araik də, Ruben də, Samvel də tezliklə rədd olub bölgədən gedəcəklər”.

**Hüquq müdafiəçisi Xəzər Teyyublu hesab edir ki, Vardanyan da Arutyunyan kimi İnterpola axtarışa verilməlidir. Onun fikrincə, qanunvericilikdə dövlətin ali şəxsinin terrorla hədələnməsinə görə adekvat cavab verilməlidir:** “Vardanyan legitim hədəfdir. Bugünlərdə Azərbaycan ermənilərin Qarabağdakı döyüş mövqelərinin peyk görüntülərini yaydı. Daha əvvəl Araik etiraf etmişdi ki, kabinetdən çıxıb hara gedirsə, Azərbaycanın xəbəri olur. Yəni bu adamları asanlıqla izləyə, hərəkətlərini təqib edə bilirik. Ona görə Vardanyan köpəyinin vurulması üçün bütün hüquqi əsaslar var. Sadəcə, Azərbaycan təmkinli siyasət yürüdür və biz "yumşaq güc" siyasəti ilə separatçı administrasiyanı darmadağın etməyi hədəfləmişik".

**Hüquq müdafiəçisi BMT Təhlükəsizlik Şurasında Qarabağdakı vəziyyətin müzakirə edilməsindənsə, regionda xunta rejiminin mövcudluğunun iclasa çıxarılmalı olduğunu düşünür:** “Təhlükəsizlik Şurasının 5 daimi üzvü görmür ki, bölgədə sabitliyə təhdid mənbəyi bu silahlı quldur dəstələrdir? Regionda sülh və təhlükəsizlik vacibdirsə, Laçın yolunda "blokada" əsas deyil, silahlı 10 min erməni hərbçisi və onlarla birgə addımlayan Vardanyan kimi başıpozuq adamlardır. O baxımdan biz dünyanın yenidən ədalətsiz münasibətini görməkdəyik və tam haqqımız çatır ki, dövlət rəhbərliyini, ölkəni terrorla təhdid edən bu adamı zərərsizləşdirək.

Ümumiyyətlə, Qarabağda əlində silah olan və eləcə də bizə qarşı hədyanlar səsləndirən, ərazi bütövlüyümüzə təhdid xarakterli çağırışlar edən istənilən erməninin məhv edilməsi legitimdir. Biz antiterror əməliyyatı keçirməklə regionda təhlükəsizliyi təmin etmiş oluruq. Məgər enerji resurslarının buradan Qərbə axdığını bilən dünya dövlətlərinə bu lazım deyilmi?"

Onu da deyək ki, avqustun 15-də yayılan məlumata əsasən, Azərbaycanın rus sülhməramlıların müvəqqəti məsuliyyət zonasında olan Xankəndi şəhərinə göndərilmiş rusiyalı milyarder Ruben Vardanyan “xeyriyyə aksiyası”na başlayıb. Bu barədə erməni mediası xəbər yayıb. Bildirilir ki, R.Vardanyanın “Qarabağın təhlükəsizlik və inkişaf cəbhəsi” adlı “ictimai hərəkatı” sosial yeməkxanalar açır. Orada hamilə qadınlar, 16 yaşa qədər olan uşaqlar və 65 yaşdan yuxarı insanlara gündə bir dəfə pulsuz yemək veriləcək. Vardanyanın ofisindən bildirilib ki, “sosial yeməkxana” xeyriyyə proqramı “qida ilə bağlı çətinlikləri” yüngülləşdirmək məqsədi daşıyır və “ehtiyacı olan soydaşlarımıza gündə bir dəfə yemək imkanı təklif edir”.

Maraqlıdır ki, bu təşəbbüsə qarşı elə erməni icması özü çıxış edib. Onlar bildiriblər ki, əgər qida çatışmazlığı varsa, Vardanyanın ofisi bu qidanı haradan əldə etdiyini açıqlasın: “Yaxşı olardı ki, o qidalar mağazalara aparılsın və satışa çıxarılsın”.

❑ **Emil SALAMOĞLU,
“Yeni Müsavat”**

# Bakıya hibrid müharibə təhdidi ciddiləşir - Rusiya, İran və xuntaçılar bir arada?

## Hərbi ekspert: "Terrorçuların azğınlıq etdiyi ərazilərimizdə suverenliyimizin bərpasının vaxtı çatıb"

**Sərhəddə davam edən TIR təxribatı və İrəvanın BMT TŞ-yə həyasızcasına "blokada" ilə bağlı müraciəti bu il də Ermənistanın sülh müqaviləsindən yayınacağının əyani sübutudur. Ən nikbin siyasi müşahidəçilər də bu xüsusda artıq skeptik mövqeyə keçməkdədirlər.**



Rövşən Məhərrəmov

"Görünən odur ki, ilin sonunadək sülh müqaviləsinin imzalanması ehtimalı ortadan qalxmaqdadır. Çünki Ermənistanın arqumentləri dəyişir. 750 milyon dollarlıq silahı Hindistanın Mumbay limanından İrana, oradan da Zəngəzur dəhlizinə daşıyıblar. Silahın təxminən 70 faizi Rusiya sülhməramlıları vasitəsilə Qarabağa, əsasən də Ağdərəyə keçirilib".

Bunu Musavat.com-a **Sosial Tədqiqatlar Mərkəzinin (STM) mətbuat katibi, siyasi şərhçi Əziz Əlibəyli** deyib. Onun sözlərinə görə, son günlər baş verən proseslər göstərir ki, Azərbaycana qarşı hibrid müharibəni reallaşdırmağa çalışırlar: "İrana aid "Qüds" briqadaları və "Həşdi Şabi" terror qruplaşması daxil, PKK-nın da iştirak etdiyi 1500 nəfərlik dəstə artıq Qarabağdadır. Onların iştirakı ilə həm separatçıların, həm də "Laçın dəhlizi" istiqamətində toplaşan erməni ordusunun çarpaz hücumu gözlənilə bilər. Bu, həm də elə bir vəziyyətdə ortaya çıxan şəraitdir ki, sülh addımları ilə bağlı nə əldə olunmuşdusa, onlar zərbə altına düşür və bizim də leqal hədəflərimiz yaranır".

**Azərbaycan Müdafiə Nazirliyinin 14 avqust açıqlamasında isə deyilir ki, son günlər Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindəki qeyri-qanuni erməni silahlı birləşmələrinin və Ermənistan silahlı qüvvələrinin qalıqlarının aktivliyi müşahidə olunur.** "Ərazidəki qeyri-qanuni birləşmələr və Ermənistan silahlı qüvvələrinin qalıqları tərəfindən döyüş mövqelərinin şəxsi heyət, silah-sursat baxımından gücləndirilməsi, eləcə də yeni müdafiə hədlərinin, səngərlərin, uzunmüddətli fortifikasiya qurğularının hazırlanması və əraziyə minaların basdırılması müşahidə olunub. Bundan başqa, qanunsuz hərbi birləşmələrin üzvlərinin Qarabağ iqtisadi rayonunun bir neçə yaşayış məntəqəsində müxtəlif təyinatlı döyüş texnikası, xüsusilə də hava hücumundan müdafiə və radioelektron mübarizə vasitələrini yerləşdirməsi, mülki əhalinin kütləvi şəkildə silahlandırılması faktları da məlum olub. Planlaşdırılmış şəkildə atəş mövqeləri bir çox hallarda yaşayış evlərinin yaxınlığında yerləşdirilir" - məlumatda qeyd olunub.

Belə çıxır, Rusiya ("sülhməramlı" kontingenti), İran və oyuncaq rejim ölkəmizə qarşı hibrid savaşı planına yer alıb?

**Azərbaycan XİN-in yaydığı son bəyanatda da bu xüsusda xəbərdarlıq əksini tapıb:** "Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycanın suveren ərazilərində hərbi quruculuq işləri və fəaliyyətin qeyri-qanuni şəkildə artırılması ilə paralel olaraq, son günlərdə Ermənistan tərəfindən delimitasiya olunmamış dövlət sərhədi boyunca növbəti hərbi avantüra məqsədli irimiqyaslı silah, digər hərbi texnika və şəxsi heyətin toplanması da müşahidə olunub".

Yada salaq ki, ötən ilin oktyabrında Qarabağa rus hərbçilərin icazəsi ilə qanunsuz şəkildə keçən onlarla iranlı hərbi təlimatçılarla bağlı (terror üzrə mütəxəssislər, onların adbaad siyahısı dərc olunmuşdu) Azərbaycan İrana etiraz notası təqdim eləmiş, izahat tələb etmişdi. Notaya bu günədək cavab verilməyib. Rusiyanın Qarabağda hansı oyunlardan çıxması da çoxdan məlum.

Nə baş verir? İrana aid "Qüds" briqadaları və "Həşdi Şabi" terror qruplaşması daxil, PKK-nın da iştirak etdiyi 1500 nəfərlik dəstənin Qarabağda olması nə dərəcədə realdır? Onlar Azərbaycana hansı təhlükəni yarada bilər? Silahları nədir, zərbə dronları varmı?

**Hərbi ekspert, polkovnik Rövşən Məhərrəmov "Yeni Müsavat"a bildirdi ki, son günlər Azərbaycanın dövlət sərhədində və Qarabağdakı erməni separatçılar tərəfindən Azərbaycana qarşı təxribatlar, hərbi hərəkətlilik müşahidə olunur:** "Ermənilər bir tərəfdən dünya ictimaiyyətini Azərbaycana qarşı qoymağa çalışırlar, bir tərəfdən isə müharibə və təxribat hazırlıqlarını gücləndirirlər. Ermənilərin təxribat və müharibə hazırlıqları Azərbaycanın müvafiq strukturları tərəfindən qeydə alınır. Yəni ortada çoxsaylı sübutlar, faktlar var. Bölgədə Rusiya-İran-Qarabağdakı hərbi xunta işbirliyi açıq görünür. Bu işbirliyi Azərbaycana qarşı hibrid müharibə hazırlığındadır. Ermənilərə silah verilməsi, silah daşınmasına şərait yaradılmasından tutmuş, Qarabağa "Həşdi-şabi", PKK, "Qüds briqadaları" adlı terror qruplarının terrorçularının yerləşdirilməsinə qədər qanunsuzluqlara, cinayətlərə əl atılıb. İndi isə prosesi faktiki olaraq hərbi qarşıdurmaya doğru daşıyırlar.

Hibrid müharibə aparan qüvvələr öz aləmlərində hesab edirlər ki, bu yolla Azərbaycanı haqq yolundan döndərə biləcəklər. Ancaq yanılırlar. Azərbaycan bütün təzyiqlərə rəğmən, öz konstitusiyasına və beynəlxalq qanunlara əsaslanaraq Laçın yoluna nəzarət-buraxılış postunu qurdu və yolu öz nəzarəti altına aldı. Bu, Azərbaycanın suveren hüququdur. Azərbaycan terror qruplaşmalarının, qanunsuz hərbi birləşmələrin azğınlıq etdiyi ərazimizdə də nəzarəti ələ alacaq. Bu da Azərbaycanın suveren hüququdur və dövlətimiz bu hüququndan növbəti dəfə istifadə edəcək. Sülhməramlı adı altında bölgədə separatizmə dəstək verən Rusiya hərbi kontingentinin separatçılarla birgə fəaliyyəti onların bu ərazidən çıxarılmaları üçün əsas olacaq".

**Ekspert xatırlatdı ki, İrandan Qarabağa terrorçuların göndərildiyi vaxtında deşifrə olunub:** "Müxtəlif terror qruplaşmalarının erməni separatçıları ilə bir yerdə olduğu isbat edilib. Həmin terror təşkilatlarının üzvləri 44 günlük müharibə zamanı da Azərbaycana qarşı döyüşürdülər. Ermənilərlə PKK və digər terror qruplaşmaları həmişə iç-içə olublar, bu gün də birlikdədirlər. Qarabağdakı 10 min nəfərlik qanunsuz hərbi qruplaşmaların daxilində PKK, "Həşdi-şabi", "Qüds briqadaları" və digər terror qruplaşmalarının da üzvlərinin olması ehtimalı yüksəkdir. Ona görə də Azərbaycan dövləti bölgədə antiterror əməliyyatını keçirmək üçün ciddi əsaslara malikdir. Dünya birliyi də əslində Azərbaycanın terrora qarşı mübarizəsinə dəstək verməlidir. Çünki terrorizm bütün dünya üçün təhlükədir. Azərbaycan öz təhlükəsizliyini qorumaq üçün xüsusi əməliyyat keçirmək haqqına sahibdir və onun bu addımı həm də bölgənin və dünyanın faydasınadır.

Terrorçuların azğınlıq etdiyi ərazilərimizdə suverenliyimizin bərpasının vaxtı çatıb. Xankəndi terrorçulardan, separatçılardan təmizlənməlidir. İstisna deyil ki, müharibədən sonrakı müəyyən müddətdə ermənilərə İrandan zərbə dronları daşınıb. Lakin onların əlində hansı silahların olub-olmaması Azərbaycanın güclü ordusunu durdura bilməz. Azərbaycan hərbi hava qüvvələri və hava hücumundan müdafiə qüvvələrinin arsenalında ən müasir hava zərbələrindən müdafiə sistemləri mövcuddur. Bizə qarşı istifadə ediləcək istənilən hücum silahlarını zərərsizləşdirmək və dağıdıcı cavab zərbəsi endirmək imkanlarına malikik. Azərbaycan ona qarşı aparılan hibrid müharibədən çəkinmir".

**❑ Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Erməni lobbisindən İsrail prezidentinə məkrli müraciət: Bakının atacağı kontraddım



**İsrailin "Wella" saytı məlumat verir ki, İsrailin bir qrup alim və ziyalısı prezident İshak Herzoqa müraciət edərək Azərbaycan və Ermənistan arasında "mübahisəli Dağlıq Qarabağ bölgəsində" cərəyan edən humanitar böhranın həllinə köməklik göstərməyi xahiş ediblər (Publika.az).**

"İsrail dövlətinin regiondakı vəziyyətə cavabdeh olan Azərbaycanla sıx əlaqələri, demək, bu böhranın sona çatmasına kömək etmək imkanı var. İsrail müdaxilə etmək və dayanmamaq kimi mənəvi öhdəliyə malikdir", - deyə müraciətdə bildirilir.

Sayt iddia edir ki, "120.000 əhalisinin əksəriyyətinin erməni mənşəli olduğu ərazi son səkkiz aydır faktiki olaraq azərbaycanlıların mühasirəsindədir və bu, ərzaq və dərman kimi zəruri malların daşınmasını çətinləşdirir".

Sayt xatırladır ki, İsrailin İranla həmsərhəd olan Azərbaycanla sıx əlaqələri var və 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun istifadə etdiyi İsrail istehsalı olan silahlar həlledici rol oynayıb. Hazırda bağlanmış Laçın dəhlizi kimi tanınan yol "erməni anklavı"na girib-çıxan yeganə keçiddir və məktub müəlliflərinə görə, "onun bağlanması sakinləri əzablara və məhrumiyyətli həyata, hətta onları aclıq və xəstəlikdən kütləvi ölümə məhkum edə bilər... Son həftədə bir neçə beynəlxalq qurum, o cümlədən BMT ekspertləri və ABŞ-ın dövlət katibi Entoni Blinken sakinlərin həyatı üçün real təhlükə və Azərbaycanın humanitar yardımların tətbiqinə icazə verməsinə təcili ehtiyac barədə xəbərdarlıq edib".

"Azərbaycanın imzaladığı müqavilələrə zidd hərəkətlər etdiyi və kəskin humanitar böhrana səbəb olduğu bir vaxtda bu ölkəyə göstərdiyimiz yardımlar bizim üzərimizdə xüsusi mənəvi məsuliyyət qoyur, hətta bizə mühüm imkan yaradır... Bizim indiki zamanda, xüsusən də erməni xalqı ilə çoxillik və çoxşaxəli tarixi əlaqəmiz fonunda laqeyd qalmağımız mümkün deyil. İstər yəhudi tarixi, istərsə də erməni tarixi biganəliyə haqq qazandıran siyasi bəhanələri yaxşı bilir" - məktubda deyilir.

Bununla təbii ki, müəlliflər xüsusilə məkrlə İsrail ictimaiyyətinin soyqırımı mövzusunda həssaslığına oynamağa çalışırlar.

Məktub müəllifləri vurğulayırlar ki, onlar münaqişəyə siyasi müdaxilə deyil, "ağır təhlükə altında olan" bölgə sakinlərinə yardım gözləyirlər. Məktubda Azərbaycan-Ermənistan müharibəsinin İsrailin maraqları üçün doğurduğu "fəsadlar" açıqlanır, qərar qəbul edənlərdən ona qarşı fərqli mövqe sərgiləmələri və müharibəyə regional və beynəlxalq töhfələri nəzərə almaları tələb olunur.

Xatırladaq ki, Hersoq bu ilin mayında İsrailin Azərbaycana rəsmi səfər edən ilk prezidenti olub, bundan sonra müdafiə naziri Yoav Qalant da Bakıya gəlib.

"Arabi 21" (Livan) saytı məktubun meydana çıxmasının İsraillə əlaqələri yaxşılaşdırmağa və bu yolla Azərbaycanın müttəfiqləri ilə münasibətlərini korlamağa çalışan erməni lobbisinin əməlinin nəticəsi olduğunu yazır.

Məktubu imzlayanların kimlikləri da maraqlıdır. İsraildəki erməni lobbisi əvvəllər əsasən parlamentdəki ərəb-xristian üzvlərdən Azərbaycan və Türkiyə əleyhinə istifadə edirdisə, indi siyahının genişləndirilməsi, bu fəaliyyətin yeni şəxsləri əhatə etməsi diqqət çəkir: Açıq Universitetdən soyqırımı üzrə tədqiqatçı professor Yair Oron, Holokost və Soyqırımı Araşdırma İnstitutunun sədri, professor İsrael Tşarani, jurnalist Yaakov Achimair və yazıçı Ora Achimair, nazir və keçmiş parlament üzvü, ravvin Michael Melchior, jurnalist Şari Raz, elm adamları və digər fəallar.

Əvvəlki arayışlarda da erməni və İran lobbilərinin İsrailin özündə Bakı-Təl-Əviv əməkdaşlığını hədəfə alan fəaliyyəti haqda məlumat vermişdik. Demək, yalnız rəsmi əlaqələrlə kifayətlənmək olmaz, İsraildə anti-Azərbaycan fəaliyyətlərin önünü kəsmək üçün vətəndaş cəmiyyətinin, medianın və diasporun da işini canlandırmağa ehtiyac var.

YENİ MÜSAVAT
N 142 (8278) 16 avqust 2023



# Dörd qatlı namə

Zamin HACI
zaminhaci@gmail.com

**1992-93-cü illərdə Ermənistan Azərbaycanın bəzi rayonlarını işğal eləyəndə BMT Təhlükəsizlik Şurası qətnamələr hazırlamışdı, erməni ordusunun həmin torpaqlardan çıxması tələbini qoymuşdu. Tələb o qədər kəskin, radikal idi, İrəvanda 20 nəfər qorxusundan intihar eləmişdi.**

Əlbəttə, qara yumor idi, BMT TŞ-nin həmin qətnamələri tualet kağızı qədər də önəm daşımırdı. Ona görə ermənilər 27 il o torpaqlardan çıxmadılar. Nəhayət, uca millətimizin səbir kasası daşdı, şapalağı qoyub düşməni öz torpağından qovdu. Eyni zamanda BMT-nin məlum və məlun qətnamələrini yerinə yetirdik.

İndi isə bütün dünya guya Qarabağ ermənilərinin taleyindən narahat olubdur, gündə üstümüzə gəlirlər. Deyirlər Laçın sərhədini açın, su yolu olsun, hansımız istəsək gedək Qarabağda terrora qoşulaq. Hətta 16 avqustda BMT TŞ-də bu məsələ müzakirəyə çıxarılacaqmış. Ermənistanın arzusu ilə.

Dəli şeytan deyir biz də ermənilərin yolu ilə gedək. Axı 27 il BMT qətnamələrini, üzr istəyirəm, peysərə verərkən Ermənistan belə deyirdi: "Bu işin bizə dəxli yoxdur, o rayonları Qarabağ erməniləri tutub, qoy Azərbaycan öz problemlərini həmin ermənilərlə həll eləsin". Eyni üsulla Azərbaycan da bu gün BMT-yə cavab verə bilər ki, sən öl, heç bilmirəm Laçında yolu kim bağlayıb - laçınlılar, kəlbəcərlilər, şuşalılar, yoxsa zəngilanlılar... Qoy indi də Qarabağ erməniləri daxili problemlərini laçınlılar (və başqaları) ilə həll etsin.

Bunun demoqrafik əsasları, zəmini də faktiki hazırdır, Azərbaycan hökumətinin köçkünlərin yurdlarına dönüşü prosesini məhz o bölgədə daha sürətlə başlaması, daha sürətli aparması doğru addımdır. Nəyə görə laçınlının evi, həyət-bacası, küçəsi hansısa erməni terrorçularına yol-yolağa olmalıdır? Lap adını "humanitar aksiya" qoy, yalan üflə. Heç bir humanitar aksiya başqa tərəfdə humanitar fəlakətə səbəb olmamalıdır. Qoy Xankəndi erməniləri Laçın camaatı ilə danışıqlar aparsın, bəlkə onlar müəyyən maşınların keçməsinə icazə verəcəkdir.

Yeri gəlmişkən, elə bugünlərdə təsadüfən Bakıda bir ağsaqqal laçınlı ilə həmsöhbət oldum. Deyir kəndimizə getmişdim, iki mərtəbəli evimdən dizə qədər uçuq hörgü qalmışdı. İşğaldan öncə kəndlərində məktəb direktoru işləyirmiş. Sovet hökuməti hələ 1988-89-cu illərdən bu kəndlərin hamısından silahları yığıb: "Mənim məktəbimdə hərbi dərslər keçmək üçün biri avtomat olmaqla üç tüfəng var idi. Sovetin daxili qoşunları gəldilər, hamısını yığıb apardılar ki, guya sülh olacaq. Ancaq sonra həmin tüfəngləri ermənilərə verib bizi qırmağa göndərdilər".

Füzulidən keçmiş əsgər, qazi Hadrutun ermənilər yaşamış, 2020-ci ildə azad olunmuş kəndinə getmiş, maraqlı video çəkmişdi. Videoda hündür, necə deyərlər, "taxtapuşlu"-zirzəmili evlər görünürdü və keçmiş döyüşçü boğmağa çətinlik çəkdiyi qəzəblə videonu şərh edirdi: "Baxın, bu evlərin daşlarını Füzulinin azərbaycanlılar yaşamış kəndlərindəki evlərdən sökük gətiriblər". Doğrudan da, bayırdan suvağı vurulmamış tikiliyə baxanda bunun kubiklərinin hərəsinin bir rəngdə olması - başqa evlərdən sökülüb gətirilməsi açıq bilinirdi.

İndi bu azğın yaramazlar yalandan əzabkeş donuna giriblər, qapılara düşüb timsah göz yaşları axıdırlar, "humanitar fəlakət" deyə ulaşırlar. Humanitar axı insana aiddir! Haçan siz humanizm göstərmisiniz, indi cavabını almağa ümidlisiniz?

Ancaq bir tragikomik arxayınlıq var ki, onsuz BMT TŞ hərəsi ağzını başqa yönə tutmuş, daha doğrusu, biri o birini parçalamasın deyə ağız-ağıza yatan canavar-dövlətlərdən ibarətdir, bunlardan qorxmağa dəyməz. Uzağı təzə qətnamə çap edərlər. Onu da birtəhər Xankəndinə yollasınlar, ermənilər sanitar məqsədli kağız kimi yararlansınlar. Biz 27 il işlətmişik. Yumşaqdır, incitmir. Dörd qatlıdır.



# Bakı istəmədiyi müharibəyə sürüklənir - gözlər Nyu-Yorkda

## İrəvan son sülh şansını da basdırır; Paşinyan devirdiyi hakimiyyətin kursuna qayıdıb; Ermənistan rəhbəri odla oynayır, danışıqlar sıfırlana bilər...

**Ermənistanın baş naziri Nikol Paşinyanın son açıqlamaları, Azərbaycanla az qala, şərt dilində danışması, o sırada "beynəlxalq mexanizm" altında Bakı-İrəvan dialoqundan və "Qarabağda etnik təmizləmə" təhlükəsindən dəm vurması, ardınca İrəvanın "blokada" bəhanəsi ilə BMT Təhlükəsizlik Şurasına (TŞ) müraciəti Bakı-İrəvan danışıqlarını tam mənasız edə bilər. Bu o deməkdir ki, kapitulyant tərəfin təxribatçı və qlobal aktorları da cəlb eləməklə qurduğu olduqca təhlükəli oyunlar nəticəsində ilin sonuna iki ölkə arasında sülh sənədinin imzalanması qeyri-mümkündür.**

Deyəsən, Ermənistan sülhdən çox, daha bir müharibəni uduzmağa tələsir. Azərbaycan Xarici İşlər Nazirliyinin srağagünkü bəyanatı bu xüsusda beynəlxalq birliyə, o sırada onun ABŞ, Avropa Birliyi və Rusiya kimi tərkib hissələrinə regiondakı durumu bir daha xatırlatmaqla yanaşı, İrəvana müharibə xəbərdarlığıdır, ona özünü yığışdırmaq üçün axırıncı şansdır. Eyni zamanda prosesin içində olan qlobal güclərə nə qədər gec deyil, Ermənistanı ağla gətirib düz yola qaytarmaq, onun "ipini yığmaq" üçün çağırışdır.

***

"Bu gün Azərbaycan və Ermənistan arasında davamlı sülhün bərqərar edilməsi yönündə göstərilən səylər Ermənistanın məqsədyönlü gərginlik və revanşizm siyasətinin qurbanına çevrilib və ciddi təhdidlərlə üzləşir".

Bəyanatdakı bu sitat yeni müharibə üçün darıxan "qaynar erməni başlarına" aydın ismarış olmaqla birgə, ayıldıcı təsir göstərməlidir. Çünki 2-ci Qarabağ savaşı ərəfəsində də onlar bu cür "göylə gedir", reallıq hissini tam itirərək və konstruktiv danışıqlardan faktiki imtina edərək, "yeni ərazilər uğrunda yeni müharibə" deyirdilər. Nəticə bəlli.

Təsadüfi deyil ki, XİN-in son bəyanatında yeni potensial müharibənin mühüm amillərindən biri kimi məhz 10 noyabr (2020) üçtərəfli bəyanatın 4-cü bəndinin ziddinə olaraq hələ də Qarabağdan erməni qanunsuz silahlı dəstələrinin çıxarılmaması da göstərilir. Habelə ərazimizdə qanunsuz erməni silahlı qüvvələrinin hərbi-mühəndislik işlərini və digər hərbi qurucu薄 fəaliyyətini intensivləşdirdiyi bildirilir. Buna paralel, son günlərdə Ermənistan tərəfindən delimitasiya olunmamış dövlət sərhədi boyunca növbəti hərbi avantüra məqsədli irimiqyaslı silah, digər hərbi texnika və şəxsi heyətin toplanmasının müşahidə olunduğu vurğulanır.

Bəyanatda həmçinin qeyd edilir ki, Ermənistanın son hərəkətləri onun Azərbaycana qarşı ərazi iddialarından əl çəkmədiyini, Paşinyanın faktiki öz sələfləri kimi sülh danışıqları imitasiya yolu tutduğunu göstərir və daha bir xəbərdarlıq gəlir: "Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü BMT Nizamnaməsi və beynəlxalq hüququn digər universal sənədləri ilə təmin edilmiş bütün qanuni vasitələrlə müdafiə etmək hüququnu özündə saxlayır. Bölgədə davamlı sülhün bərqərar olması üçün yaranmış tarixi imkanın əldən verilməməsini təmin etmək vacibdir".

Rəsmi Bakı öz prinsipial və legitim mövqeyinin müdafiəsi üçün bütün variantlara hazır olduğu haqda qərar verən paytaxtlara mesaj da çatdırıb. Artıq top bizim meydanda deyil. Onu da vurğulamaq vacibdir ki, analoji faktlar və eyni məzmunlu xəbərdarlıq Azərbaycan Müdafiə Nazirliyinin 14 avqust bəyanatında da əksini tapıb. Qalır nəticəni gözləmək. Bu isə xeyli dərəcədə Nyu-Yorkda BMT TŞ-də bu gün başlayacaq müzakirələrin nəticəsindən bilinəcək. Təbii ki, rəsmi Bakı da öz taktikasına nəticədən asılı düzəliş edəcək və ya etməyəcək...

***

"İrəvan "radikal addım" atmağa cəsarət etdi və BMT Təhlükəsizlik Şurasında anti-Azərbaycan qətnaməsinin qəbulu proseduruna başlayıb".

Bunu **politoloq İlqar Vəlizadə** deyib.

**Onun fikrincə, Ermənistanın Azərbaycan əleyhinə bu səyləri gözlədiyi nəticəni verməyə bilər:** "Güman etmək olar ki, ABŞ və Rusiya öz bitərəfliyini qorumaq və danışıqlar prosesinin tərəflərinə təsir imkanlarını itirməmək, danışıqların fəal moderatorları kimi qalmaq üçün qətnamənin qəbulunu dəstəkləməyəcək. Bunun müqabilində qətnamə yox, xüsusi bəyanat və ya müraciətin qəbulunu təklif edə bilərlər. Azərbaycanla əməkdaşlıq məsələsində xüsusi mövqe tutan Böyük Britaniyanın daha təmkinli mövqedən çıxış edəcəyinə də ümid etmək lazımdır. Amma bütünlüklə İrəvanın tərəfində olan Fransanın qətnamənin qəbulu üçün xüsusi fəallıq göstərəcəyi istisna deyil".

**Politoloq hesab edir ki, hansısa bədnam qətnamə qəbul edilsə, Azərbaycan radikal qərarlar verə, Brüssel bu şərtlər daxilində yeganə müvafiq platforma kimi qala bilər.**

"Prezident İlham Əliyev bundan əvvəl Ermənistanın sülh müqaviləsinə Azərbaycandan daha çox ehtiyacının olduğunu və Azərbaycanın sülh müqaviləsi olmadan da yoluna davam edə biləcəyini bəyan edib. Bu və ya digər şəkildə bəllidir ki, münaqişə tarixinin sonu hələ müəyyənləşməyib və Laçın yolu ətrafında vəziyyətin gərginləşməsi yeni situasiyada ancaq münaqişə gündəmini oyadır".

***

O halda təbii ki, Ermənistan bunun bədəlinə, yəni qurduğu təhlükəli oyunların bütün nəticələrinə də hazır olsun. Kapitulyant tərəf gərək unutmasın ki, diplomatlar anlaşa bilməyəndə, işə hərbçilər qarışır.

**"Ermənistanın son danışıqlarından görünən budur ki, Azərbaycanla sülh danışıqlarından imtina edib".**

**Bu isə politoloq Məhəmməd Əsədullazadənin qənaətidir.**

"Ermənistanın Azərbaycanla bağlı BMT TŞ-yə müraciəti, bu fonda şərti sərhəddə hərbi qüvvə və texnika cəmləşdirməsi Brüssel və Vaşinqton formatlarının üstündən xətt çəkir. Bu, həm də Ermənistanın sülh danışıqlarından imtina etdiyi anlamına gəlir", - ekspert bildirib.

**Onun fikrincə, Ermənistan Azərbaycandan Qarabağ erməniləri ilə bağlı BMT Təhlükəsizlik Şurasına "şikayətlər"inə istədiyi cavabı ala bilməyəcək:** "İrəvan, sadəcə, Azərbaycana qarşı beynəlxalq təzyiq mexanizmi formalaşdırmağa çalışır. Amma heç kim Ermənistana görə Azərbaycanla əlaqələrini korlamayacaq. Əlbəttə, Fransa kimi Ermənistanın adından danışan istisnalar olacaq. Ermənistanın bu siyasəti, tutduğu yol Cənubi Qafqazda gərginliyi artıracaq. Ermənistan iki istiqamətdə - həm diplomatiya, həm də şərti sərhəddə hücuma keçməyə çalışır. Fransa, Hindistan, İran və müəyyən mənada Rusiya bu prosesdə Ermənistanı dəstəkləyir. Hərbi toqquşma riski var. Ermənistan açıq formada sülh müqaviləsini imzalamaqdan boyun qaçırır. Bu isə ona yaxşı heç nə vəd etmir. Erməni təxribatlarına veriləcək növbəti cavab daha ağır və daha sərt ola bilər".

Beləcə, sülh tərəfdarı Azərbaycan istəmədiyi müharibəyə sürüklənməkdədir. Havadarları Ermənistanı vaxtında durdurmasa, bunun altını onunla birgə çəkəcəklər...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

# Ermənistana qarşı böyük təzminat davamız başlayır - məbləğ...

## Hüquqşünas prosesi ləngidən obyektiv səbəblərdən danışdı

**“Azərbaycan gözləyir ki, gələn ilin ortalarınadək Avropa İnsan Haqları Məhkəməsi (AİHM) Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində öz evlərini tərk etmiş azərbaycanlı qaçqın və məcburi köçkünlərin, həmçinin İkinci Qarabağ müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən dinc şəhərlərimizn bombalanmasının qurbanları olan vətəndaşlarımızın hüquqlarının bərpası məqsədilə Ermənistana qarşı dövlətlərarası şikayətin qəbul edilməsinə dair qərar verəcək”.**



“Yeni Müsavat” xəbər verir ki, bunu Minval.az-a eksklüziv müsahibəsində **Azərbaycanın AİHM-dəki nümayəndəsi, Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov** deyib.

“2021-ci ilin yanvarında Azərbaycan Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində öz evlərini tərk etmiş azərbaycanlı qaçqın və məcburi köçkünlərin hüquqlarının bərpası məqsədilə AİHM-ə Ermənistana qarşı dövlətlərarası şikayət ərizəsi verib. Həmçinin İkinci Qarabağ müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin dinc şəhərlərimizi bombalaması nəticəsində zərər çəkmiş vətəndaşlarımızdan şikayətlər edilib,” - deyə hüquqşünas qeyd edib.

**Onun sözlərinə görə, işğal altında olan ərazilərimizin azad edilməsi maddi ziyanın həcmini daha dəqiq müəyyən etməyə imkan verir.** “İnsan hüquqlarının pozulmasına görə kompensasiya tələbinin verilməsi Avropa Məhkəməsində icraatın son mərhələsidir. Əminəm ki, o vaxta qədər biz maddi və mənəvi ziyanı, eləcə də dəymiş maddi ziyanın məbləğinin indeksləşdirilməsini nəzərə alaraq yekun rəqəmlə çıxış edəcəyik”.

Bəs təxminən hansı rəqəmdən (məbləğdən) söhbət gedir? İşğalçını böyük maddi təzminatlar ödəməyə vadar etmək üçün hazırlıq nə yerdədir? Prosesə təcrübəli əcnəbi vəkillər də cəlb olunubmu və nə qədər zaman alacaq? Ermənistana qarşı təzminat davamız 2025-ci ilədək yekunlaşa bilərmi?

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə** “Yeni Müsavat”a bildirdi ki, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində Azərbaycana dəyən ziyanın maddi qiymətləndirilməsi prosesi davam edir. Bu proseslə paralel olaraq Azərbaycan Avropa İnsan Hüquqları Məhkəməsinə Ermənistana qarşı iddialar da hazırlayır və göndərir: “Ötən ilin payızında Azərbaycan Baş Prokurorluğu və Xarici İşlər Nazirliyi açıqlama yaydı ki, 1988-ci ildən indiyədək Ermənistan silahlı qüvvələri və qanunsuz erməni silahlı birləşmələri tərəfindən Azərbaycana qarşı törədilmiş ekoloji cinayətlər nəticəsində 16,2 milyard manat məbləğində ziyan dəyib. Dəyən ziyan Qarabağda və Şərqi Zəngəzurda faydalı qazıntı yataqlarından qanunsuz istifadə, eləcə də ekoloji terror nəticəsində baş verib. Azərbaycan Baş Prokurorluğu tərəfindən 19 nəfər axtarışa verilib, habelə işğal olunmuş ərazilərdə qanunsuz iqtisadi fəaliyyətlə bağlı 166 hüquqi şəxs barəsində 35 ölkəyə hüquqi müraciətlər göndərilib.

Beləcə, işğal nəticəsində Azərbaycana ekoloji terror nəticəsində dəyən ilkin maddi ziyan bəlli olub. Əslində qat-qat böyük bir məbləğdən söhbət getməlidir və gedəcək. Çünki yüzlərlə yaşayış məntəqəmiz yerlə bir edilib. Göstərilən bu məbləğ daha çox ekoloji terrorun nəticələri və təbii sərvətlərin qanunsuz istismarı ilə bağlı Ermənistanın Azərbaycan vurduğu zərərin məbləğidir. Əslində Ermənistan ordusunun və qanunsuz hərbi birləşmələrin Azərbaycana qarşı həyata keçirdiyi müharibə, terror nəticəsində Azərbaycana yüz milyardlarla dollar miqyasında zərər vurulub. Eyni zamanda minlərlə insanımız öldürülüb, şikəst edilib, itkin düşüb, 20-ci əsrin ən böyük müharibə cinayətlərindən olan Xocalı soyqırımı Azərbaycan xalqına qarşı törədilib. Bütün bunların maddi dəyəri məbləğlə, rəqəmlərlə ölçülə, ölçüyə gələ bilməz.

Həmçinin bəllidir ki, Azərbaycanın yüzlərlə kəndi, qəsəbəsi, şəhəri Ermənistan tərəfindən işğal zamanı darmadağın edilib, talan olunub, yüz minlərlə vətəndaşımızın mülkiyyəti məhv edilib, ermənilər tərəfindən qəsb edilib. Bütün bunlar isə yüz milyardlarla ölçülə biləcək zərərdir. Azərbaycan dövləti, müvafiq qurumlar bu istiqamətdə də araşdırmalarını davam etdirirlər. 44 günlük müharibənin başa çatmasından keçən bu müddət ərzində Azərbaycan kifayət qədər real addımlar atıb, Azərbaycana vurulmuş maddi, mənəvi zərərlərin qiymətləndirilməsi ilə bağlı ciddi işlər görülüb. Bununla bağlı beynəlxalq məhkəmələrdə Azərbaycanın haqq davasının qaldırılması istiqamətində addımlar atılıb. Beynəlxalq məhkəmələrdə Azərbaycan Ermənistana qarşı iddialar qaldırır və bu iddiaların təmin edilməsi istiqamətində bütün hüquqi prosedurlar ardıcıl olaraq həyata keçirilir.

Ermənistanın məhz işğal siyasəti nəticəsində Azərbaycana vurduğu maddi zərərlərin ödənilməsi ilə bağlı kifayət qədər əlimizdə hüquqi prosedurlar, əsaslar mövcuddur. Beynəlxalq hüququn imkan verdiyi müxtəlif konvensiyaların, məsələn, Cenevrə Konvensiyasının tələblərindən irəli gələrək Azərbaycan təzminatın ödənilməsi üçün mübarizəsini davam etdirib praktik nəticələr əldə etmək imkanına sahibdir. Eyni zamanda beynəlxalq təcrübə də imkan verir ki, indiyə qədər Ermənistanın törətdiyi və cəzasız qaldığı cinayətlərin beynəlxalq araşdırılması və real hüquqi qiymətinin verilərək İrəvanın təzminat ödəməsinə nail ola bilək. Beynəlxalq humanitar hüquq və Azərbaycanın mövcud qanunvericiliyi buna tamamilə imkan verir. Hesab edirəm ki, Azərbaycan bu imkanlardan istifadə etməklə Ermənistanı ciddi şəkildə cəzalandıracaq".

**Hüquq müdafiəçisi bildirdi ki, Avropa İnsan Hüquqları Məhkəməsinin Azərbaycandan verilən iddialara baxması qanunun tələbidir:** “Ancaq iddialara baxılan zaman qərarların nə olacağını dəqiq söyləmək mümkün deyil. Ermənistanın Azərbaycan ərazilərini işğalı nəticəsində Azərbaycanın dövlət əmlakına və vətəndaşların şəxsi əmlaklarına çox böyük zərərlər dəyib. Torpaqlamız azad edildikdən sonra Azərbaycana və onun vətəndaşlarına ermənilərin vurduğu maddi ziyanın miqyasının dəhşətli dərəcədə yüksək olduğu tam aydın oldu. Ermənistan Azərbaycan dövlətinə və vətəndaşlarına təzminat ödəməyə borcludur. Bunun üçün Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlar çıxarması lazımdır. Biz buna nail olmaq üçün çalışmalıyıq. Çingiz Əsgərovun dedikləri həqiqətdir. Azərbaycan tərəfi bu istiqamətdə ciddi işlər görür.

Hazırlıq məsələsi dedikdə çox güman Çingiz müəllim onu nəzərdə tutur ki, axı bizim işğaldan azad olunan ərazilərimizin hamısı minalardan təmizlənməyib və proses başa çatmadan həmin ərazilərdə məhv edilmiş, talan edilmiş əmlakların dəyərini dəqiq qiymləndirmək mümkün deyil. Avropa İnsan Hüquqları Məhkəməsi ədalətli məhkəmədirsə, Azərbaycanın sənədlərlə, sübutlarla qaldırdığı iddialar əsasında Ermənistana qarşı qərarlar çıxarmalıdır. Azərbaycanın iddialarına əslində operativ baxılmalıdır. Çünki bu, dövlətlərarası məsələdir. Ümid edirəm ki, Avropa Məhkəməsi iddialara baxılmasını gecikdirməyəcək. Bu, 2025-də də, 2026-da ola bilər. Ermənistanın cinayətlərinə mütləq qiymət verilməlidir".

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Qarabağla bağlı ağlasığmaz ssenari - “Belə bir sənəd qəbul olunsa...”



**“BMT Təhlükəsizlik Şurasında keçiriləcək müzakirələrin bizim üçün ən önəmli nəticələrindən biri bu güclərin mövqeyini yenidən test etmək olacaq”.**

Bunu politoloq Elxan Şükürlü deyib.

Ekspert avqustun 16-da BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə keçiriləcək müzakirəyə diqqət çəkib: “Azərbaycana qarşı Qərbdən təzyiqlərin yenidən gücləndiyi bir vaxtda Ermənistanın müraciəti əsasında BMT Təhlükəsizlik Şurasında "Qarabağ ermənilərinin durumu" müzakirəyə çıxarılacaq. Ermənistanın əsas məqsədi odur ki, BMT Təhlükəsizlik Şurası Azərbaycanın Qarabağ ermənilərini “blokada”da saxladığı, “humanitar böhran” yaratdığı haqda sənəd qəbul etsin. Çünki belə bir sənədin qəbulu Ermənistan hakimiyyətinə və onun Qərbdəki himayədarlarına vaxtilə Kosovoda tətbiq edilən modeli bu dəfə Qarabağ danışıqlarına daşımaq fürsəti verə bilər.

Neçə vaxtdır Ermənistanın Azərbaycanla sülh danışıqlarında xüsusi qabartdığı “Qarabağ ermənilərinin hüquq və təhlükəsizliklərinə beynəlxalq zəmanət” tezisinin kökündə də əslində “Kosovo presedenti”nə istinad və süni şəkildə belə bir durumun yaradılması ssenariləri dayanır. Əsas missiyası dünyada sülhü və təhlükəsizliyi qorumaq olan BMT-nin artıq öz funksiyasını yerinə yetirə bilmədiyinə və tamamilə nüfuzdan düşməsinə baxmayaraq, bu qurumun beynəlxalq güclərin əlində bir alətə çevrildiyi və dünyaya ən böyük təhlükənin də elə BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvünün olduğu faktını heç vaxt unutmamalıyıq".

**Elxan Şükürlü son sözü Azərbaycanın deyəcəyini bildirib:** “Sabah (bu gün - red.) Nyu-Yorkda keçiriləcək müzakirələrin bizim üçün ən önəmli nəticələrindən biri, şübhəsiz ki, bu güclərin mövqeyini yenidən test etmək, Qarabağdakı erməni separatizmini hansı dövlətlərin açıq şəkildə dəstəklədiyini, Azərbaycanın maraqlarını isə hansı ölkələrin qoruduğunu görmək və gələcək münasibətlərin məsafəsini də ona uyğun qurmaq olacaq. Problemin köklü həllində son və qəti sözü isə əlbəttə, yenə də Azərbaycan əsgəri deyəcək”.

# Aİ-nin missiyası erməniləri YALANLADI - Ermənistana ŞOK!




**Avropa İttifaqının Ermənistandakı müşahidə missiyası Ermənistan Müdafiə Nazirliyinin Azərbaycan Silahlı Qüvvələrinin müşahidəçilər istiqamətində atəş açması ilə bağlı bəyanatını təkzib edib.**

Musavat.com xəbər verir ki, bu barədə məlumat Ermənistan qaynaqlarında göstərilib.

“Missiyanın heç bir müşahidəçisi atəşə məruz qalmayıb. Biz sərhəd bölgələrində patrul xidməti həyata keçiririk və Brüsselə hərbi hadisələr, o cümlədən məsuliyyət zonamızda baş verən atışmalarla bağlı hesabat veririk”, - deyə məlumatda qeyd olunub.

Xatırladaq ki, bundan əvvəl Ermənistan Müdafiə Nazirliyi avqustun 15-də saat 12:20 radələrində Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin Yuxarı Şorca bölgəsində patrul aparan Avropa İttifaqının müşahidəçiləri və onların avtomobili istiqamətində atıcı silahlardan atəş açdığını bəyan etmişdi.

YENİ MÜSAVAT
N 142 (8278) 16 avqust 2023

# Rusiya həm müharibə aparır, həm də Aya kosmik gəmi göndərir - Qərbin sanksiyaları nə vaxt işləyəcək?

**Rusiyanın Aya su mənbəyi axtarmaq üçün bir neçə gün öncə (avqustun 11-də) göndərdiyi "Luna-25" kosmik gəmisindəki elmi cihazların işə düşdüyü və ilk məlumatların işləndiyi bildirilib. Rusiya Federal Kosmik Agentliyinin ("Roskosmos") açıqlamasında ölkənin 1976-cı ildən bu yana Aya göndərdiyi ilk kosmik gəmisi olan "Luna-25"in fəaliyyətləri ilə bağlı məlumatlar yer alıb.**

Açıqlamada kosmik gəmidəki bütün sistemlərin normal işlədiyi qeyd edilib. Həmçinin kosmik gəmidəki elmi cihazların işə salındığı, əldə edilən ilk məlumatların işləndiyi də bildirilib.

"Luna-2"5 avqustun 11-də Moskvadan 5500 kilometr şərqdə yerləşən "Vostoçnıy" kosmodromundan "Soyuz 2.1b" raketi ilə buraxılıb. Təxminən 1 il müddətində Ayda araşdırma aparacaq "Luna-25" kosmik şüaların və elektromaqnit emissiyalarının Ay səthinə təsirini araşdırmaqla yanaşı, su tapmaq üçün axtarışları da davam etdirəcək.

Qeyd edək ki, sanksiyaları izləyən Castellum.AI şirkətinin hesablamalarına əsasən, 2022-ci ilin 24 fevralından bəri Rusiya iqtisadiyyatı, vətəndaşları və şirkətlərinə qarşı 13 500 qadağa və məhdudiyyət tətbiq olunub. Ölkəyə qarşı Maqnitski aktı və Krımın işğalına görə tətbiq oluna sanksiyaları da nəzərə alsaq, onların sayı 16 mini keçir. Beləliklə, rahatlıqla demək olar ki, Rusiya sanksiya sayına görə mütləq dünya çempionudur. Bu göstərici üzrə ölkə İranı 3 dəfə geridə qoyur...

Bu qədər sanksiyaların qarşısında Rusiyanın aya araşdırma gəmisi göndərməsi diqqəti cəlb edir. Çünki Rusiyanın kosmik sahədə fəaliyyət göstərən qurumu olan "Roskosmos" ötən ilin fevral-martında ABŞ və Avropadakı bütün əməkdaşlıq imkanlarından məhrum edilib. Hələ 2014-cü ildə Krımı işğal edəndə ABŞ Rusiya istehsallı raket mühərriklərindən istifadəni dayandırmaq qərarına gəldi bə bu məqsədə 2021-ci ildə nail olundu. Ölkə özünün "Falkon" mühərriklərini istehsal edərək, müştəri bazasını sürətlə genişləndirdi. O qədər ki, artıq 2022-ci ilədək Rusiyanın istehsalı olan "Atlas V" mühərriklərini alan qalmadı. Rusiya mühərrikləri ilə işləyən raketlərin qiyməti 187 milyon dollardan 100 milyon dollara qədər salındı, lakin onlar SpaceX-in "Falcon 9" mühərrikləri ilə işləyən raketlər üçün təklif etdiyi 62 milyon dollarla rəqabət apara bilmədilər.



2022-ci ilin fevralından isə ABŞ və Avropa İttifaqı Rusiyanın aerokosmik sənayesinin məhsullarına münasibətdə sanksiya tətbiq etdi. Aerokosmik sahədə Rusiya ilə icra olunan bütün layihələr dayandırıldı. Rusiya mənbələrinin məlumatına görə, sanksiyalar "Roskosmos"u illik sifarişlərinin 90 faizindən çoxundan məhrum etdiyinə görə indi kosmik sahədə bütün layihələrin maliyyələşdirilməsi bilavasitə dövlət tərəfindən qarşılanmalıdır. 2030-cu ilədək planlaşdırılan xərclər isə 4,5 trilyon rubldan yuxarıdır.

Rusiya iqtisadiyyatının bütün sahələri, o cümlədən aerokosmik sənaye Qərb komponentlərin asılıdır. Bu asılılıq xüsusilə kosmosda hava təzyiqinə davamlı mikroelektron hissələrlə bağlı daha güclüdür.

"Roskosmos"un rəhbəri Dmitriy Roqozin hələ 2022-ci ilin martında sanksiyaların zəruri komponent təminatına təsirindən danışarkən anbarlarda yaxın bir neçə illik ehtiyatların mövcud olduğunu bəyan edib. Bununla yanaşı, son vaxtlar kosmosdakı fəaliyyətlər üçün zəruri komponentlərin Çindən alınması istiqamətində müzakirələr başladılıb. Belə görünür ki, Qərb detalları tükənənə qədər Rusiya onların Çindən alışını yoluna qoymağı hədəfləyir. Lakin bu hədəfə çatılması bir xeyli problematik görünür. Belə ki, artıq sanksiyaların ağır təsirləri Rusiya iqtisadiyyatında təbəddülatlar yaratmağa başlayıb. Ölkənin milli valyutası olan rubl sürətlə dəyər itirir. Rusiya Mərkəzi Bankının avqustun 15-də uçot dərəcəsinin 8,5 faizdən 12 faizədək artırılmasına dair qərarı belə prosesin qarşısını ala bilməyib. Qərar açıqlanandan yarım saat sonra Moskva valyuta birjasında 1 dollar 100 rubla, 1 avro isə 110 rubla ticarət olunmağa başlayıb.

Rublun dəyərsizləşməsi idxalın artması, ixracın dəyərsizləşməsi fonunda baş verir. Belə ki, Beynəlxalq Enerji Agentliyinin hesablamalarına əsasən, iyun ayında Rusiyanın neft-qaz gəlirləri may ayı ilə müqayisədə 1,5 milyard dollar və ya 11,2 faiz azalmaqla 11,8 milyar dollar təşkil edib. Bu, son aylarda ən aşağı göstərici, 2022-ci ilin eyni dövrü ilə müqayisədə isə 2 dəfəyə yaxın azdır (ötən il 20,4 milyard dolla olub - red.)

BEA-nın hesablamalarına əsasən, cari ilin birinci yarısında Rusiyanın neft ixracından gəlirləri ötən ilin eyni dövründəkindən 1,5 dəfədən çox azalaraq 120,4 milyard dollardan 77,4 milyard dollara düşüb. Agentliyin hesablamaları göstərir ki, iyun ayında Rusiyanın gündəlik neft ixracı mayla müqayisədə 0,6 milyon barel azalmaqla 7,3 milyon barel təşkil edib. Bu isə 2021-ci ilin martından bəri ən aşağı göstəricidir. Avqustun 1-dən Rusiya gündəlik neft ixracını 500 min barel daha azaldıb. Lakin BEA bildirir ki, turizm mövsümü ilə bağlı Rusiyanın daxilində yanacağa tələbat artdığına görə ixracın azalması ümumi hasilatda azalmaya gətirməyəcək.

İyul ayında Rusiyanın əsas ixrac məhsulu olan Urals markalı neftin orta qiyməti 64,37 dollar təşkil edib. Bu, G7 və Avropa İttifaqının təyin etdiyi qiymət tavanından 4,37 dollar yuxarıdır. Yeddi ayda Uralsın orta qiyməti isə hələlik tavandan aşağı - 53,94 dollardır. Uralsın qiymətində etalon marka olan Brentlə müqayisədə yanvarda 35 faizə çatan endirim isə iyulda 20 faizə qədər azalıb.

Rusiya büdcəsi hazırlanarkən gəlirlər Uralsın 70,1 dollarlıq orta qiyməti əsasında hesablanmışdı. Layihədə dövlət büdcəsi kəsirinin 2.925 trilyon rubl olacağı nəzərdə tutulurdu. Lakin iyunun sonuna kəsir məbləği 2,595 trilyon rubla çatmışdı.

Rusiya Maliyyə Nazirliyinin məlumatına görə, bu ilin yanvar-iyulunda dövlət büdcəsinin neft-qaz gəlirləri ötən ilin eyni dövrü ilə müqayisədə 1,7 dəfə azalaraq 4 trilyon 193 milyard rubl təşkil edib. Ötən ilin 7 ayında bu göstərici 7 trilyon 146 milyard rubl olmuşdu.

İyul ayında isə Rusiya büdcəsinə ötən ilin eyni dövrü ilə müqayisədə 5,2 faiz çox neft-qaz gəliri daxil olub. 811,3 milyard rubl təşkil edən gəlirin belə artımına rübdə bir dəfə toplanan əlavə gəlir vergisi səbəb olub. İyulda bu vergi üzrə büdcə gəliri 294,5 milyard rubl təşkil edib. Nazirliyin məlumatına əsasən, yanvar-iyulda neft və kondensat ixracından vergilər üzrə büdcə ötən ilin eyni dövründəkindən 38,9 faiz az - 3 trilyon 571 milyard rubl, ixrac rüsumu üzrə isə 3,1 dəfə az - 125,2 milyard rubl gəlir əldə edib.

Neft gəlirlərindəki azalma fonunda Ukraynadakı işğalçı müharibə Rusiyanın xərclərini rekord həddə çatdırır. Belə ki, Rusiya hakimiyyəti 2023-cü il üçün məqsədli müdafiə xərclərini ikiqat artırmalı olub. Bu barədə məlumatı "Reuters" əldə etdiyi hökumət sənədi əsasında yayıb. Məlumatdan aydın olur ki, bu xərclər bütövlükdə dövlət xərclərinin üçdə birinə - 100 milyard dollara qədər artırılıb. Sənədə əsasən bu ilin birinci yarısında Rusiya məqsədli müdafiəyə bütövlükdə 2023-cü ildə planlaşdırılan 4,98 trilyon rubldan (54 milyard dollar) 12 faiz və ya 600 milyard rubl çox - 5,59 trilyon rubl xərcləyib. Bu, 14,97 trilyon rubl təşkil edən ümumi büdcə xərclərinin 37,3 faizinə bərabərdir.

Xərclərin belə çoxalması fonunda neft qiymətlərinin yüksəlməsi Rusiya büdcəsi üçün müsbət amildir. Rusiya Maliyyə Nazirliyi bəyan edib ki, qiymətlərin 80 dollardan yuxarı olduğu avqust ayında dövlət büdcəsi 73,2 milyard rubl həcmində neft-qaz gəliri əldə edə bilər. Nazirliyin məlumatına əsasən, 15 iyul-14 avqust aralığında Uralsın qiyməti 70.33 barel təşkil edib. Bu, yəqin ki Qərb üçün ciddi siqnal olacaq və Rusiya neftinə təyin olunan qiymət tavanına əməl olunması istiqamətində daha ciddi addımlar atılacaq. Artıq Polşa və Baltik ölkələri qiymət tavanının 50 dollara endirilməsi, həmçinin ona əməl etməyənlərə qarşı daha sərt addımların atılmasını tələb edirlər.

Rusiya hələ ki sanksiyalardan yayınaraq kosmik və hərbi sənayesi üçün zəruri materialları əldə edə bilir. Rusdilli "Verstka" portalının apardığı araşdırmadan aydın olur ki, bu ilin birinci yarısında Rusiya 502 milyon dollarlıq Qərb şirkətlərinin qadağan olunan çiplərini idxal edib. Hansı ki, məhz həmin çiplər Rusiyanın Ukraynaya yağış kimi yağdırdığı raketlərin istehsalında istifadə edilir.

Altı ayda Rusiya həmçinin mülki aviasiya üçün 171 milyon dollarlıq Qərb ehtiyat hissələri, 389 milyon dollarlıq iPhone telefonları idxal edib. İkili idxal yolu ilə ölkəyə Airbus mühərriklərindən tutmuş, məişət texnikasına qədər hər şey gətirilir. Lakin üçüncü ölkələr, şirkətlər və banklar vasitəsilə həyata keçirilən çatdırılma və maliyyələşmə Rusiya üçün çox baha başa gəlir.

"Verstka"nın araşdırmasına görə, son aylarda xüsusilə ikili idxal yolu ilə alınan məhsullar 3 qat baha əldə olunur. Bu isə Rusiyanın idxal xərclərini kəskin artırmaqla, ölkədə valyutaya tələbi yüksəldir, nəticədə rubl üçün böyük təzyiqlər formalaşır. Əksər ekspertlər sanksiyalardan yayınmağa qarşı tədbirlər sərtləşdirildikcə, xərclərin daha da artacağını və rublun dəyərsizləşməsinin davam edəcəyini proqnozlaşdırırlar...

**Dünya SAKİT, "Yeni Müsavat"**

# Azərbaycanın Ukraynadakı səfirindən sərt açıqlama - Moskva niyə xofландı?

**Xəbər verildiyi kimi, bugünlərdə Azərbaycanın Ukraynaya yeni təyin olunan səfiri Seymur Mərdəliyev Ukraynanın daxili işlər nazirinin müavini Boqdan Drapyatla görüşüb.**

Mərdəliyev bildirib ki, Azərbaycan Ukrayna tərəfini tam dəstəkləyir və bundan sonra da ona kömək edəcək. Azərbaycan səfiri dəstəyin bir neçə istiqaməti haqqında danışıb: ukraynalı uşaqların tibbi və psixoloji reabilitasiyası, hərbçilərin reabilitasiyası, enerji sektoruna yardım və müharibədən sonrakı bərpa. Humanitar minatəmizləmə sahəsində təcrübə mübadiləsi üçün treninqlərin keçirilməsi də müzakirə olunub. Görüşün sonunda M.Mərdəliyev yeni yardım paketini açıqlayıb.

“Rusiyanın təcavüzünü dəf etməkdə göstərdiyiniz dəyanətə və cəsarətə heyran olduğumuzu bildirmək istərdik. Ona görə də biz Ukraynaya yardım paketinin həcmini, o cümlədən humanitar minatəmizləmə məsələsində artırmaq qərarına gəldik. Biz artıq Ukraynaya kömək etmək üçün öz üzərimizə siyasi öhdəliklər götürmüşük”, - səfir əlavə edib.

Diplomatın fikirlərinə Moskvadan reaksiya gecikməyib.

“Azərbaycanın Kiyevdəki səfiri Seymur Mərdəliyev Rusiya ilə bağlı açıqlamalarında daha təmkinli olmalıdır”.

Bunu Rusiya Federasiya Şurasının beynəlxalq məsələlər komitəsinin rəhbəri, XİN rəhbərinin sabiq müavini Qriqori Karasin bildirib.

O, Telegram kanalında qeyd edib ki, Bakı “Moskvaya dost olaraq qalır”.


Seymur Mərdəliyev

“Diplomatik açıqlığa bütün peşəkar hörmətimizi izhar eləməklə yanaşı, mən hələ də bizə dost Azərbaycanın Ukraynadakı səfiri Mərdəliyevə "Rusiya təcavüzü" ilə bağlı açıqlamalarında daha təmkinli olmağı tövsiyə edərdim. Onun “Ukraynaya maliyyə, humanitar və digər yardımlarla bağlı siyasi öhdəliklər” haqqında məlumatının isə əlavə araşdırmaya ehtiyacı var", - deyə Karasin əlavə edib.

Məlumdur ki, səfir ölkənin xaricdəki danışan dilidir və yalnız onun mövqeyini ifadə edir.

**Razi Nurullayev:** “Səfir bu sözləri işlədibsə, deməк ki, belə lazımdır...”



Öncəki səfir Elmira Axundova rusiyayönlü idi. Deyəsən, ilk dəfədir ki, rəsmi Bakı Kiyevə belə açıq dəstək verir və Ukrayna xalqına heyranlıq bildirir. Gözlənildiyi kimi, bu da dərhal Rusiyada qıcıq yaradıb. Niyə? Səfir “barıtı” çox etməyib ki? Bəs Rusiyanın reaksiyası adekvatdımı?

**Mövzu ilə bağlı Milli Məclisin Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Razi Nurullayev “Yeni Müsavat”a danışıb. Deputat xatırladıb ki, hər bir səfir təmsil etdiyi ölkənin danışan dilidir:** “Səfir adətən ölkənin təlimatı və protokolları üzrə fəaliyyət göstərir və istədiyi fikri, istədiyi yerdə ifadə edə bilməz. Azərbaycan tərəfi Ukraynaya açıq şəkildə, gizlətmədən humanitar yardım edir, hətta bununla bağlı Prezidentimiz sərəncam imzalayıb. Bu baxımdan, Azərbaycanın Ukraynadakı səfirinin səsləndirdiyi fikirlərdə kənara çıxma yoxdur. Bəli, "Rusiya təcavüzü" kimi fikirlər səsləndirib, əslində bütün dünya Rusiyanı təcavüzkar adlandırır, həmçinin Azərbaycan insanlarının gözündə təcavüzkardır. Çünki biz özümüz separatizmlə qarşılaşmışıq, bu gün də onunla mübarizə aparırıq.

Təbii ki, Azərbaycanın səfiri bütün bunları görür, yaşayır. Azərbaycan Ukraynanın ərazi bütövlüyünü rəsmi olaraq tanıyır və Rusiyanın Ukraynaya hücumunu qəbul etmir. Qeyd etdiyim kimi, ola bilər ki, səfirimiz bununla bağlı sözlərini daha qabarıq şəkildə bildirib, bu da ondan irəli gəlir ki, Rusiya hələ də Ermənistan üzərindən Azərbaycana təhdid imkanlarını özündə saxlayır. Beləliklə, biz Rusiya ilə daha ehtiyatlı siyasət aparmağın tərəfdarıyıq. Əgər səfir bu sözləri işlədibsə, deməк ki, belə lazımdır və buna görə səfiri qınamaqdan uzağam.

Məncə, Ukrayna tərəfi də Azərbaycandan bəzi məsələlərdə daha açıq mövqe gözləyir. Hərçənd Ukrayna səfirindən bu açıq münasibəti görə bilmirik. Hətta Ukraynanın Ermənistandakı səfiri Laçın istiqamətində düzülmüş “TIR” şousuna qatılaraq, Ermənistan tərəfindən Azərbaycanla bağlı aparılan monitorinqdə iştirak etmişdi. Azərbaycan isə nə edirsə, beynəlxalq qanunları, insanların, dövlətlərin kimliyini əsas gətirərək edir. Bu baxımdan, biz Ukraynanın ərazi bütövlüyünü tanıyırıq. Təkcə Ukrayna deyil, digər ölkələrin də. Yoxsa ki, İspaniya kimi, öz ərazisində separatçıları bütün dünya boyu qovur, tapıb gətirib salır həbsxanaya, amma Azərbaycanda separatizmi dəstəkləyir. Bu cür ikiüzlü yanaşma olarmı? Azərbaycanda bu cür ikiüzlü yanaşma yoxdur. Odur ki, biz həmişə fikirlərimizi hər zaman açıq demişik. Eləcə də səfirimiz fikirlərini açıq deyib.

Əlbəttə ki, Rusiya tərəfi də bilir ki, Azərbaycan Ukraynanı müdafiə edir, ona humanitar yardım göndərir. Azərbaycan Ukraynaya hər zaman kömək edib, edəcək də, amma bu, hərbi yardım kimi başa düşülməməlidir. Biz Ukraynaya hərbi deyil, yalnız humanitar dəstək göstəririk və hərbi dəstək göstərmək niyyətində də deyilik. Çünki bizim Rusiya ilə sazişimiz var, həm də özümüz Ukrayna müharibəsinə bənzər problemlərdən çıxmağa çalışırıq”.

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

# “Volt Azərbaycan” şirkətinin fəaliyyəti dayandırılıb?

**Eyyub Hüseynov:** “Şirkətin bağlanmasının tərəfdarı deyiləm, amma...”

**Zülfüqar Yusifov:** “Dünyanın hər yerində qida sektorunda çalışan insanlar, müəssisələr davamlı nəzarətdən keçir”




**“Volt Azərbaycan” Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətinin dayandırılması ilə bağlı məhdudlaşdırıcı qərarın təkrar tətbiqi barədə qərar qəbul edilib.**

Bu barədə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) məlumat yayıb.

Belə ki, “Volt Azərbaycan” MMC-yə məxsus qida məhsullarının çatdırılması (daşınması) müəssisəsində aparılmış planlı yoxlama çərçivəsində qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların bir sıra tələblərinin pozulması faktları aşkarlanıb.

Müəssisənin “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununa zidd olaraq qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi, qida məhsullarının istehlakçılara çatdırılması zamanı isti və soyuq zəncirin qorunmadığı, məhsulların temperatur rejimi və mal qonşuluğu qaydaları pozulmaqla daşındığı, həmin nəqliyyat vasitələrində dezinfeksiya işlərinin aparılmadığı, qida məhsullarının çatdırılmasında iştirak edən şəxslərin tibbi müayinədən keçmədikləri müəyyən olunub.

AQTA-dan bildirilib ki, aşkarlanmış nöqsanlarla əlaqədar sözügedən müəssisə tərəfindən qida məhsullarının çatdırılması fəaliyyətinin dayandırılması, ilkin və dövri tibbi müayinədən keçməyən şəxslərin müəssisədən kənarlaşdırılması ilə bağlı məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərar qəbul edilib. Eyni zamanda MMC-nin məsul şəxsi barəsində müvafiq tədbir görülüb. Daha sonra isə qəbul edilmiş qərarın icra vəziyyətinin yoxlanılması ilə əlaqədar "Volt Azərbaycan" MMC-də plandankənar yoxlama keçirilib. Yoxlama zamanı şirkət tərəfindən nöqsanların aradan qaldırılmadığı, həmçinin fəaliyyətinin dayandırılmasına baxmayaraq, fəaliyyət göstərdiyi müəyyən olunub.

“Bununla əlaqədar, qanunvericiliyin tələblərinə uyğun olaraq, həmin müəssisənin fəaliyyətinin dayandırılması ilə bağlı məhdudlaşdırıcı qərarın təkrar tətbiqi barədə qərar qəbul edilib. Eyni zamanda tələblər yerinə yetirilmədiyinə görə cəmiyyətin məsul şəxsi barəsində müvafiq tədbir görülüb. Göstərilənlərə əsasən, AQTA insanların həyat və sağlamlığının qorunması, istehlakçıların hüquqlarının müdafiəsi məqsədilə bir daha ictimai iaşə müəssisələrinin rəhbərlərini qidaların daşınmasını və istehlakçılara çatdırılmasını yalnız qeydiyyatdan keçmiş və temperatur rejimi təmin olunan avadanlıqlara (nəqliyyat vasitələrinə) malik, qida ilə təmasda olan şəxsləri tibbi müayinədən keçmiş qida subyektləri tərəfindən həyata keçirilməsini təmin etməyə çağırır”, - məlumatda qeyd olunur.

Bəs ekspertlərin “Volt Azərbaycan” şirkətinin fəaliyyətini dayandırmasına münasibəti necədir? Alternativ xidmət nə olacaq?

**Mövzu ilə bağlı Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov “Yeni Müsavat”a danışıb:** ""Volt"un fəaliyyətindən Azad İstehlakçılar Birliyinə də xeyli şikayətlər gəlirdi, xüsusən də pandemiya dövründə. Şikayətlər əsasən qidanın soyuq çatdırılması, daşıyıcıların qidalara müdaxilə etməsi, daşıyıcıların gigiyenik tələblərə cavab verməməsi, məhsulların gec çatdırılması və sairə ilə bağlı olurdu. "Volt"un ən ciddi problemlərindən biri daha çox ictimai nəqliyyatda yaratdıqları problemlər olurdu. Məsələn, heç bir nömrə nişanları olmadan nəqliyyat vasitəsindən istifadə edir, yollarda sürücülərə və piyadalara ciddi təhlükəli vəziyyət yaradırdılar.

Əlbəttə ki, Azad İstehlakçılar Birliyi olaraq tərəfdarı deyilik ki, istehlakçıların seçim hüququ məhdudlaşsın. Çox yaxşı olardı ki AQTA adıçəkilən şirkətdə vəzifənin, işin standartlara uyğun olması sahəsində iş görsün, onları təkimilləşdirsin. Yeni şirkətin bağlanmasının tərəfdarı deyiləm. Amma təəssüflər olsun ki, AQTA bu günə qədər şirkətdə ciddi nöqsanlar olduğu halda onları müəyyən etməyib. İllər boyu istehlakçıların hüquqları pozulub və birdən-birə AQTA-nın ayılması doğru deyil. Arzu edərdim ki, “Volt” AQTA-nın tələblərinə uyğun fəaliyyət göstərən yeni bir ampulada işə başlasın. Əgər bu şirkət bağlanıb yerinə başqa, bu cür şirkət gələcəksə, bu, böyük səhv olar. Onda belə çıxacaq ki, bu, hansısa inhisarçının dəstəklənmək üçündür. Hesab edirəm ki, bu, baş verməyəcək. Azad İstehlakçılar Birliyi tərəfdarıdır ki, şirkətdə vəziyyət düzəlsin".

**Bəs qida sektorunda tibbi müayinədən keçməyən işçilər hansı xəstəlikləri yaya bilər? “Ankara” klinikasının baş həkimi Zülfüqar Yusifov bu barədə qeyd edib:** “Ümumiyyətlə, dünyanın hər yerində qida sektorunda çalışan insanlar, müəssisələr davamlı olaraq nəzarətdən keçir. Burada əsas məsələ müştərilərin sağlamlıq təhlükəsizliyinin qorunmasıdır. Hansı xəstəliklər bu yollar keçə bilər? Əsasən infeksion, hava damcı yolu ilə keçən, dəridə olan keçici xəstəliklərdir. Onlara yoluxma ehtimalı daha çoxdur. Həmçinin bir sıra təhlükəli viral infeksiyalar da var ki, onlar da əgər işçi tərəfindən müəyyən qaydalara əməl olunmazsa, dəridə kəsik, qanla təmas olarsa, yoluxa bilər. Bu baxımdan, bu sektorda çalışan insanların, müəssisələrin müəyyən təlimatlara uyğun şəkildə fəaliyyət göstərməsi olduqca zəruridir. Düşünürəm ki, AQTA tərəfindən ortaya qoyulan iradlara uyğunlaşmağa çalışılacaq, qısa müddətdə nöqsanlar aradan qaldırıldıqdan sonra şirkət fəaliyyətinə davam edə biləcək”.

***P.S.*** Yazı hazırlanarkən “Volt Azərbaycan” MMC fəaliyyətinin dayandırılması haqda xəbərlə bağlı şirkətin açıqlaması yayıldı. Açıqlamada deyilir ki, şirkət fəaliyyətini davam etdirir, onun mobil tətbiqi aktivdir və müştərilər öz sifarişlərini həmişəki qaydada yerləşdirə bilərlər. “Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) irəli sürdüyü iddialara gəldikdə isə, "Volt" öz fəaliyyətini heç bir qanun pozuntusu olmadan həyata keçirir və bu, məhkəmənin qüvvəyə minmiş qərarı ilə təsdiqlənib.

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 142 (8278) 16 avqust 2023

# Xameneyidən sonrakı İran - Bolton nəyə işarə edir?

## Fərəc Quliyev: "Bu cür təxminlərə ciddi yanaşmıram, çünki..."
## Sədrəddin Soltan: "Onun varlığı və ya yoxluğunun Güney Azərbaycana heç bir təsiri yoxdur"



**"İranın dini lideri Əli Xameneyinin ölümü bu ölkədə rejim dəyişikliyi ehtimalını hər zamankından daha çox artıracaq".**

Bunu ABŞ prezidentinin təhlükəsizlik məsələləri üzrə keçmiş müşaviri Con Bolton deyib.

Onun sözlərinə görə, "İslam İnqilabı Keşikçiləri Korpusu" (SEPAH) səviyyəsində baş verəcək qarşıdurma səbəbindən Xameneyinin ölümündən sonra İranda rejim dəyişikliyi və demokratiyaya keçid ehtimalı həmişəkindən daha çox olacaq. Bolton SEPAH komandirləri və din xadimləri arasında qarşıdurmanı istisna etmir.

Onun fikrincə, İranın dini liderinin ölümü SEPAH-ı həmişəkindən daha həssas nöqtəyə gətirəcək. Bolton Xameneyinin hazırda 84 yaşının olduğunu və xəstəlikdən əziyyət çəkdiyini iddia edib.

ABŞ-ın keçmiş rəsmisi xatırladıb ki, İran liderinin fiziki durumu dəfələrlə pisləşib və Tehran rejimi Xameneyinin ölümündən sonra hakimiyyətin ötürülməsi mərhələsi üçün dəqiq real yol xəritəsinə malik deyil. Boltonun fikrincə, bu o deməkdir ki, SEPAH-a qarşı təzyiqlər həmin andan sonra daha da artacaq və bu onu zəiflədəcək.

Bəs Xameneyidən sonra İranı nə gözləyir? Güneydəki soydaşlarımızın vəziyyətinə hansı təsirlər mümkündür? Ümumiyyətlə, İrandakı rejimin varlığı Xameneyi faktoruna nə dərəcədə bağlıdır?

**Mövzu ilə bağlı Milli Dirçəliş Hərəkatı Partiyasının lideri Fərəc Quliyev "Yen Müsavat"a açıqlamasında Boltonun təxminlərini bölüşmədiyini bildirdi:** "Siyasətdə belə təsadüflərlə proqnozlar bildirmək və yaxud bir ölkənin taleyini təsadüfi hadisələrə bağlamaq doğru deyil. Xameneyi dünyasını dəyişəndə başqasını gətirib, onun yerinə qoyacaqlar. Yəni heç nə dəyişməyəcək. Əslində kollektiv olaraq qərar qəbul edirlər və dini liderlər onların icrasını prezident aparatına tapşırır. Onlar sxemi elə qurublar ki, bir nəfərin dünyasını dəyişməsi ilə hansısa dəyişikliklər olmur.

Artıq indidən Xameneyinin yerinə bir çox namizədlərin adları hallanır. Varislik prinsipi rəsmi elan olunmasa da, hər halda, bir neçə nəfərin onun yerinə olacağı düşüncəsi vardır. Ümumiyyətlə, Amerikanın bu yanaşmasında başqa məqsəd görürəm. Birincisi, fikrimcə, pərdəarxası alver gedir, çünki bir müddət əvvəl İranın Cənubi Koreya banklarında dondurulmuş hesablarının qaytarılmasına icazə veriblər. Həmin hesablara İranın neft satışından əldə olunan pullar toplanırdı. İranın həbs götürülən hesablarında 7 milyard dollar vəsait var idi. Lakin Koreya vonunun məzənnəsi düşdüyünə görə indi vəsaitlər 6 milyard dollara bərabərdir. Yəni bir tərəfdən sanksiyalar tətbiq olunur, digər tərəfdən onun valyutasını qaytarırlar. Qeyd etdiyim kimi, pərdəarxası müəyyən alverlər gedir. Pulu qaytaranda adını qoyurlar ki, "neft sənayesi neftlə bağlı məsələnin səliqəyə salınması üçün"".

**Fərəc Quliyevə görə, Amerika İranda daha çox ona uyğun rejimin olmasında maraqlıdır:** "İranın formasının dəyişilməsini və onunla hesablaşmasını istəyirlər. Ona görə hər zaman qeyd edirdim ki, Güney Azərbaycanda gedən Milli Azadlıq Hərəkatı heç kimin yadında deyil. Əlbəttə ki, Güney Azərbaycan Milli Hərəkatı bütövlükdə Azərbaycan Milli Azadlıq Hərəkatının bir hissəsidir. Onun Quzeydə nailiyyətləri var, bu - dövlət quruluşudur. Güneydə isə nailiyyətlər davam edir və bu bizim hamımızın işidir. Bu mənada bizim hərəkatçılar bu cür təxminlərə inanmamalı, onu əsas götürməməli, yeni şəkillləndirmələr etməli, dəyişikliklər etmək üçün işlər görməlidirlər. Yoxsa ki, kimsə öləcək deyə planlar qurmaq doğru deyil. Bəlkə Xameneyi heç ölməyəcək, 100 ildən çox yaşayacaq? Məncə, bu daha çox kiminsə başının altını yastıqlamaya xidmət edən məsələdir.

İkincisi, Amerika tərəfi onsuz da şahın oğlu üzərində müəyyən gəlişmələr etməyə çalışırdı. Qərbdə də daha çox fransızlar iş görürdü. Yəni hərə öz əlinə oynayır. Beləliklə, bu cür təxminlərə ciddi yanaşmır və hesab edirəm ki, belə məsələlərlə bölgəni və ölkənin taleyini proqnozlaşdırmaq və yaxud hansısa layihəni hazırlamaq düzgün deyil".

**Orta Doğu Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi Sədrəddin Soltan isə mövzuya bu cür şərh bildirdi:** "ABŞ prezidentinin keçmiş müşavirinin Con Bolton Xameneyidən sonrakı dövrlə bağlı şərhini bir sıra istiqamətə dəyərləndirmək olar. Avtoritar və diktatura rejimlərindən sonra ölkədə vəziyyət necə olur? Xatırladım ki, Xomeyni öləndə onun ölüm xəbərini bir neçə gün gizlətdilər, elan etmədilər, çünki hakimiyyət bir sıra məsələləri həll etməli idi. Hakimiyyətdaxili problemləri həll etdikdən sonra bu xəbəri elan etdilər. Xameneyi də İranda avtoritet və diktatordur. Bəs Xameneyidən sonra yeni qüvvə kim ola bilər? Burada bir sıra ehtimallar var. Bu ehtimallardan biri oğlu Müctəba Xameneyidir. Bununla bağlı da müəyyən fikirlər səslənir ki, hətta ölkəni Xameneyi deyil, oğlu idarə edir.

İkinci bir məsələ İranda hakimiyyətdaxili qovğalar məsələsidir. İranda inqilab baş verən gündən bu günə qədər hakimiyyətdaxili ziddiyyətli iki xətt var. Onlardan biri məlum olan liberal-mülayim xətçilərdir, onlara islahatçılar da deyirlər, digəri isə mühafizəkarlar-sərtxətçilərdir. Yəni hazırda hakimiyyətdə dominantlıq, üstünlük təşkil edən qüvvə həmin bu mühafizəkar sərtxətçilərdir. Bəs sonrakı mərhələdə hakimiyyəti mühafizə, müdafiə edən dəstəkləyən SEPAH-ın vəziyyəti necə olacaq?

SEPAH daxilində bir neçə dəfə qarşıdurma olub, hətta SEPAH-çılar Xameneyini devirməyə belə cəhd ediblər, amma bu baş tutmayıb. Həmçinin ayrı-ayrı vaxtlarda SEPAH-ın zabitləri öldürülüb və elan ediblər ki, guya yeməkdən zəhərlənib və yaxud binadan yıxılıb ölüb və sairə. Bu onu göstərir ki, SEPAH daxilində də münasibət birmənalı deyil. Hətta ötən ilin sentyabrında başlayan etirazlar zamanı SEPAH daxilində bəzi qüvvələr xalqın haqlı etiraz səsinə səs vermək istəyib. Sıravi SEPAH-çılar belə xalqı müdafiə etməyə cəhd ediblər və bu tip hadisələr çox olub. Bütün bunlar SEPAH-ın daxilində problemin yarana biləcəyini deməyə əsas verir.

O ki qaldı Xameneyinin varlığının Güney Azərbaycan türklərinə təsiri, bu vaxta qədər Xameneyi soydaşlarımıza qarşı heç bir müsbət təsir göstərməyib. Xameneyi fars şovinizminə xidmət edən türk əsilli biridir. İran-fars rejimi onun savadından, bacarığından istifadə edərək İranın ərazi bütövlüyünü qoruyub. Ona görə də Xameneyinin varlığı və yoxluğu Güney Azərbaycan türkünə heç bir təsiri yoxdur və bu baxımdan post Xameneyi dövrünün Güney Azərbaycan türkünə heç bir təsiri olmayacaq.

Məsələn, Urmiya gölünün quruması məsələsinə Xameneyinin hansı işləri oldu? 44 ildir İran qanunvericiliyində ana dili ilə bağlı 15-ci maddə icra olunmur. Xameneyi nə zaman Azərbaycan türkcəsində məktəb açılmasını bildirdi? Və yaxud 2006-cı il may hadisələrində azərbaycanlılar təhqir olunanda soydaşlarımızı müdafiə etdimi? Yəni onun hakimiyyətdə olub-olmamasının Güney Azərbaycan türkünün milli haqqının təmin olunmasına, həyatına, fəaliyyətinə, gələcəyinə heç bir təsiri yoxdur".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**


# "Nar"dan sərfəli rouminq: pulsuz WhatsApp yazışma




**Abunəçiləri üçün istənilən yerdə fasiləsiz ünsiyyəti təmin edən "Nar" yay tətilini xaricdə keçirən müştəriləri üçün sərfəli rouminq paketləri təqdim edir. Müxtəlif ehtiyaclara uyğun sərfəli qiymətə təqdim olunan 4 rouminq paketindən yararlanmaq üçün səfərə çıxmazdan əvvəl rouminq paketlərindən birini sifariş etmək kifayətdir. İstədiyiniz ölkəyə uyğun istənilən rouminq paketini "Nar+" tətbiqində XidmətlərPaketlərRouminq bölməsindən çox rahat şəkildə sifariş edə bilərsiniz.**

İstifadəçilər üçün unikal seçimlər təqdim edən "Nar"ın "Rouminq 9" paketi abunəçilərə 500 MB internet, "Rouminq 15" paketi 500 MB internet və 50 dəqiqə səsli zəng, "Rouminq 18" paketi 1 GB internet, "Rouminq 28" paketi isə 1 GB internet və 100 dəqiqə səsli zəng xidməti təklif edir. Xüsusilə qeyd etmək lazımdır ki, "Rouminq 18" və "Rouminq 28" paketlərində "WhatsApp" yazışmaları tamamilə pulsuzdur, yəni bu trafik sizin internet paketinizdən çıxılmayacaq.

Müştərilərin rahatlığını artırmaq üçün sifariş edilən paket daxilində balansı yoxlamaq isə *777#20#YES yığmaq qədər sadədir. "Rouminq 9", "Rouminq 15" paketlərinin istifadə müddəti 5 gün, "Rouminq 18" və "Rouminq 28" paketlərinin istifadə müddəti isə 15 gündür. Rouminq xidməti haqqında bütün məlumatları nar.az/abroad ttps://www.nar.az/abroad bölməsindən əldə edə bilərsiniz.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

YENİ MÜSAVAT
N 142 (8278) 16 avqust 2023

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

**Qarabağa "Böyük Qayıdış" planı çərçivəsində Füzuli sakinlərinin öz yurd-yuvalarına qayıtmaq arzuları artıq reallaşmaq üzrədir. Məcburi köçkünlər iki mərhələdə Füzuliyə geri dönəcəklər. Gələn aydan etibarən bu prosesin ilkin mərhələsi başlanacaq.**

Artıq Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Füzuli şəhərinə birinci mərhələdə köçürüləcək ailələr arasında püşkatma da keçirib. Püşkatmada 144 ailə (509 nəfər) iştirak edib. Ailə tərkibinə uyğun olaraq, onlardan 51-i ikiotaqlı, 76-sı üçotaqlı, 17-si dördotaqlı mənzillə təmin olunub. Həmin ailələr indiyədək Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar.

Onu da qeyd edək ki, hazırda ən sürətli şəkildə məcburi köçkünlərin geri döndüyü yerlərdən biri də Laçındır. Ötən həftə daha 23 ailənin - 93 nəfərin Laçına qayıdışı baş tutub. Beləliklə, Laçın şəhərində 203 ailə, yəni 793 nəfər daimi məskunlaşıb.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) **Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Eldar Seyidov** Ağdam yaşayış məhəllələrinin salınması barədə açıqlamasında həmin rayonun sakinlərini sevindirəcək fikirlər səsləndirib: "Ağdam şəhərində 1-ci fazada məcburi köçkünlər üçün dövlət tərəfindən çox böyük yaşayış məhəllələri salınacaqdır. Əvvəlcə 1-ci yaşayış məhəlləsi barədə məlumat verim. Belə ki, Ağdamda hazırda 1-ci yaşayış məhəlləsi üzrə layihələndirmə işləri yekunlaşmaq üzrədir. Bu yaşayış məhəlləsi şəhərin şimal-şərqində yerləşir. Şərqdən Üzərliktəpə tarixi arxeoloji abidəsi, qərbdən isə şəhərin tarixi mərkəzi ilə əhatələnib. Həmçinin "İmarət" adlanan tarixi ərazi də məhəllənin yaxınlığındadır. Burada tikiləcək 1139 mənzildə 3068 nəfər məskunlaşdırılacaq.

Ümumi sahəsi 14 hektara yaxın olan 2-ci yaşayış məhəlləsinin isə ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumilikdə 1268 mənzil olacaq. Məhəllədəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infnrastruktur obyektlərinin yaradılması, geniş yaşıllıq zolaqlarının salınması nəzərdə tutulur. Layihənin 2025-ci ildə tamamlanması planlaşdırılır.



# "2026-cı ilin sonuna Ağdam şəhərinin əhalisi 20 mini keçəcək"

## Eldar Seyidov: "İlk mərhələdə Ağdama 10 min nəfərin köçü baş tuta bilər"

## Leyla Sarabi: "İlk dəfədir ki, Qarabağa köç fərdi evlərə deyil, çoxmənzilli binalara baş tutacaq"

3-cü yaşayış məhəlləsi isə daha geniş ərazidə olacaq. Ümumi sahəsi 17 hektara yaxın olan yaşayış məhəlləsinin salınacağı ərazinin bir hissəsi çoxfunksiyalı zonanı əhatə edir və bu hissələrdə əhalinin sıxlığı azdır. Məhəllədə tikiləcək yaşayış binalarında ümumi sahəsi 120 min kvadratmetr təşkil edən 1239 mənzil olacaq.

Yaşayış məhəlləsindəki binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq. Binalar daimi su, elektrik və yüksəksürətli internetlə təmin ediləcək. Məhəllədə həmçinin idman meydançaları, velosiped və avtomobil dayanacaqları yaradılacaq.

Ağdam şəhərinin 4-cü və 5-ci yaşayış məhəllələri isə layihələndirmədədir. Birinci layihənin 2025-ci ildə, ikinci layihənin isə 2026-cı ildə tamamlanması planlaşdırılır. 4-cü məhəllədə tikiləcək yaşayış binalarında 1220 mənzil, 5-ci məhəllədə tikiləcək yaşayış binalarında 1277 mənzil olacaq. Ümumiyyətlə, Ağdam şəhərinin ərazisinin 23 faizi yaşıllıq zonaları (meşə və parklar) kimi nəzərdə tutulub. Onun müxtəlif istiqamətlərdə 6 giriş-çıxış yolları olacaq. Əsas üstünlük isə daha çox piyada yollarına veriləcək. Yeni şəhərdə piyada və velosiped yollarından geniş istifadə olunacaq.

Ağdam şəhəri ərazicə geniş olduğu və bu səbəbdən də böyük həcmdə infrastruktur quruculuğu aparıldığı üçün məskunlaşmanın gələn ilin sonunda başlanacağı nəzərdə tutulur. İlk mərhələdə Ağdama 10 min nəfərin köçü baş tuta bilər. Ümumiyyətlə, 2026-cı ilin sonunadək Ağdam şəhərinə 20 min keçmiş məcburi köçkünün köçürülməsi planlaşdırılır".

**Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin rəhbəri Leyla Sarabi isə mətbuata açıqlamasında Füzuli şəhəri ilə bağlı diqqətçəkən məlumatlar verib:** "İlk dəfədir ki, Qarabağa köç fərdi evlərə deyil, çoxmənzilli binalara baş tutacaq. Şəhərdaxili yolların ümumi uzunluğunun 87 kilometr olması nəzərdə tutulur. İlkin mərhələdə 18.5 kilometr yolun tikintisi planlaşdırılır. Prospektlər dörd zolaqlı, yol və küçələr isə 2 zolaqlı olacaq. Piyadaların rahat hərəkət etməsi üçün bütün imkanlar yaradılacaq, piyada yolları, yaşıllıq zolaqları, ictimai nəqliyyatın rahat hərəkəti üçün zolaqlar, həmçinin velosiped yollarının tikintisi çox sürətlə davam edir".

**L.Sarabi onu da qeyd edib ki, Özbəkistan tərəfindən Füzulidə 3 hektar ərazini əhatə edən 960 şagird yerlik məktəbin tikintisi yüksək sürətlə davam edir və yaxın günlərdə bu məktəbin tikintisinin yekunlaşdırılması planlaşdırılır:** "Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, akt zalı, idman zalı, yeməkxana, kitabxana yaradılıb. Məktəbin ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Cavanşir ABBASLI**

# Rus pulunun pis yolu - Qərbin "xüsusi əməliyyatı"nın məqsədi Rusiyanı bu hala salmaq idi

**Rusiya hökuməti rublun ucuzlaşmasını təəccüblü sakitliklə izləyir. Bazar ertəsi günün ortalarına doğru Rusiya milli valyutası birjada 2%-dən çox ucuzlaşıb, həmin vaxt Rusiya Federasiyasının Nazirlər Kabineti operativ iclasda "peşə təhsili səviyyələrinin dəyişdirilməsi üzrə pilot layihənin aparılması qaydaları"nı müzakirə edib.**

Bu arada Dövlət Dumasının deputatları hesab edirlər ki, rublun çökməsinə hakimiyyət orqanlarının xarici ticarətin təşkilində yol verdiyi fundamental səhvlər səbəb olub. Axşam saat 5-dən sonra Mərkəzi Bank çərşənbə axşamı əsas məzənnəyə yenidən baxılması üçün fövqəladə iclas elan edib və bu, dolların 99 rubl səviyyəsinə qədər geriləməsinə səbəb olub.

Bu gün Rusiya Federasiyası Mərkəzi Bankı Direktorlar Şurasının növbədənkənar iclasını keçirəcək, burada əsas dərəcə səviyyəsi məsələsinə baxılacaq (növbəti iclas sentyabrın ortalarında keçirilməli idi).

2022-ci ilin martından bu yana ilk dəfə və Avropa valyutası 111 rublu ötüb. Fundamental amillər hələ də Rusiya valyutasına qarşı oynamağa davam edir və rubl 115-120 rubl səviyyəsinə qədər zəifləyə bilər.

Rusiya Mərkəzi Bankı rublun ucuzlaşmasından maliyyə sabitliyi üçün heç bir risk görmür, bu gün maliyyə sabitliyinə heç bir təhlükə yoxdur. Mərkəzi Bankın mətbuat xidməti yeni iş həftəsinin əvvəlində bildirib.

**Dövlət Dumasının maliyyə bazarı komitəsinin rəhbəri Anatoli Aksakov müsahibəsində rusların rublun hazırkı məzənnəsindən narahat olmadığını deyib. Onun sözlərinə görə, vətəndaşlar maaş alır, onların üzündə təbəssüm görünür**. "Əhalinin əksəriyyətinin nöqteyi-nəzərindən bu nisbətin əhəmiyyəti yoxdur", - deyə o, Rusiyanın hazırda "normal həyat" yaşadığını və tarixi inkişafın zirvəsində olduğunu əlavə edib.

Lakin Dövlət Dumasının bəzi deputatları fərqli fikirdədirlər. Deputat Dmitri Kuznetsov **Rusiya Federasiyası Mərkəzi Bankının sədri Elvira Nabiullinadan** rublun əsas xarici valyutalara nisbətdə ucuzlaşmasının səbəblərini izah etməyi xahiş edib. Onun ən böyük narahatlığı




istehlak qiymətlərinin nə olacağıdır. Onun məktubunda deyilir: "Artıq idxal olunan malların qiymətlərində kəskin artım gözlənilir ki, bu da rusların istehlak səbətində təxminən 40%-i tutmaqda davam edir".

**Bununla bağlı Dmitriyeva Mərkəzi Banka pul siyasətini tənzimləməyi təklif edir:** "Əgər Rusiya dollar maliyyə sistemindən zorla çıxarılıbsa, onda siz bütün gücünüzlə ondan yapışmamalı və onun üçün müəyyən edilmiş qaydalara əməl etməyə davam etməlisiniz. Bu baxımdan, valyutanın alqı-satqısını birja vasitəsilə həyata keçirmək lazım deyil, Mərkəzi Bank bazarda valyuta alqı-satqısı vasitəsilə rublun məzənnəsini dəstəkləməməlidir". Dmitriyevanın fikrincə, məzənnə Mərkəzi Bank tərəfindən müəyyən edilməli, valyuta gəlirlərini satmaq öhdəliyi isə bazar vasitəsilə deyil, birbaşa Mərkəzi Banka qaytarılmalıdır.

Rublun ucuzlaşması ilk növbədə ticarət balansı ilə bağlıdır - "ölkəyə daxil olan və xaricə valyuta axını", - maliyyə naziri Anton Siluanov iyulun sonunda izah edib. "Bundan əlavə, yay tətil vaxtıdır, kimsə xaricə gedəndə valyutaya tələbat da artır", - o deyib. "Rublu saxlamaq və bazarda məzənnəni tənzimləmək variant deyil, biz artıq keçmişik. Bu, qızıl-valyuta ehtiyatlarının xərclənməsini tələb edir və xarici ticarətin aparılması şərtlərini təhrif edir, - Siluanov öz mövqeyini bildirib.

Nazir deyib ki, inflyasiya səviyyəsinə nəzarət hökumət və Mərkəzi Bank üçün prioritet məsələdir, çünki bu, ilk növbədə əhalinin ən həssas təbəqələrinə təsir göstərir.

Maliyyə analitiki Pavel Ryabov yazır ki, Rusiyada tüğyan edən valyuta böhranını rublun çökməsi ilə həll etmək olmaz, çünki bu, ticarət balansını artıra bilər, lakin avro və dollarla hesablaşmaları artırmayacaq və öhdəliklərin təmizlənməsi illər çəkəcək. Onun sözlərinə görə, ticarətin neytral ölkələrin valyutasına və milli valyutaya keçidi valyuta böhranına səbəb olan əhəmiyyətli disbalanslar gətirir. Ukraynada "xüsusi əməliyyat" başlamazdan əvvəl Rusiyanın öhdəliklərində dollar və avro üstünlük təşkil edirdi - xarici valyutada xarici borc üzrə bütün biznes öhdəliklərinin 98%-dən çoxu dost olmayan ölkələrin valyutalarında idi. Analitik yazır ki, müharibə başlayandan bəri Rusiya 120 milyard dollardan çox valyuta öhdəliklərini ödəyib ki, bu da kapital axınının amillərindən biridir.

Göründüyü kimi, rus siyasətçilər də, iqtisadiçılar da, müstəqil analitiklər də bir məsələni ya bilə-bilə dilə gətirmir, ya da anlamırlar ki, Rusiya iqtisadiyyatının da, rus rublunun da bu günə düşməsinin əsas səbəbi hələ də "xüsusi əməliyyat" adlandırdıqları Ukrayna müharibəsidir. Məhz bu müharibə Rusiya iqtisadiyyatını, Rusiya ticarətini, Rusiyanın valyuta-qızıl ehtiyatını dağıdır. Əməliyyat bir neçə gün, uzağı, iki həftə çəkər, ilyarımdan çoxdur ölkə qanlı müharibəyə girişib, qan bataqlığına saplanıb və oradan çıxa bilmir.

Rusiyanın indiki vəziyyəti isə "dövşanı arabı ilə tutan Qərb"in keçən ilin baharında Rusiyaya ard-arda sanksiyalar paketi tətbiq etdiyi zaman arzuladığı və proqnozlaşdırdığı durumdur. ABŞ və Avropa hövsələ ilə Rusiyanı məhz bu günə salmaq istəyirdi və artıq salıblar. İndi rus siyasilər o girdabın dibində çabalaya-çabalaya qalıblar, ölkəni necə qurtaracaqlarını, iqtisadiyyatı necə xilas edəcəklərini, gündən-günə kasıblayan xalqı necə dolandıracaqlarını bilmirlər.

Yeganə yol Ukraynadakı müharibəni dayandırmaq, hər şeyi sıfırdan başlamaqdır, amma ruslar bunu da öz eqolarına sığışdırmırlar. Çünki Napoleonu Moskvadan qovmuş, Hitlerin burnunu ovmuş böyük xalqdır, qələbə hər zaman onlarladır - düşüncə budur.

❑ **Araz ALTAYLI,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 142 (8278) 16 avqust 2023

# Putinin 1 ili qalıb: ya hakimiyyəti, ya da ömrü qırılacaq - kəşfiyyatçıdan ŞOK!

**Elxan Şahinoğlu:** "Putin Yeltsinin taleyini yaşaya bilər"

**Şəhla Cəlilzadə:** "Qərb Putinə qarşı sui-qəsd arzulayır"

**Akif Nağı:** "Putinsiz Rusiya Qərbin əlavəsinə çevriləcək bir dövlət olacaq"

**Rusiya Prezidenti Vladimir Putin 12-13 avqust tarixlərində özünü pis hiss edib. Bu barədə rəsmi olmasa da, hökumətə yaxın "General SVR" Teleqram kanalı məlumat yayıb.**



Bildirilir ki, Putin heç bir iclas keçirməyib, ancaq dərman və hesabatlar qəbul edib: "İstirahət günləri Putin özünü pis hiss edib. Prezidentin şəxsi görüşləri yalnız həkimlər və ən yaxın adamları ilə məhdudlaşıb".

**Britaniya Xarici Kəşfiyyat Xidmətinin (MI 6) "Rusiya şöbəsi"nin keçmiş rəhbəri Kristofer Stil** isə Putinin, ümumiyyətlə, yaxın 1-2 il ərzində hakimiyyətdən gedəcəyini iddia edir. O, Qərbi belə bir ssenariyə hazır olmağa çağırıb və deyib ki, Putinin Kremldə hakimiyyətdən getməsi bir neçə ssenari nəticəsində həyata keçirilə bilər ki, bunlardan biri də onun fiziki olaraq aradan götürülməsidir.

ABŞ-ın "Sky News" telekanalına müsahibəsində o qeyd edib ki, Priqojinin üsyanı Putinin yaxın çevrəsində ciddi parçalanmanın olduğunu üzə çıxarıb. Onun sözlərinə görə, Putinin səhhətində ciddi problemlər olması barədə etibarlı mənbələrdən məlumat var. Xəstəliyin dəqiq səbəbi müəmmalı olaraq qalır, lakin Rusiya rəhbərinin qəfil ölümünün mümkünlüyü istisna olunmur.

Stil həmçinin Putinin ya onun yaxın çevrəsindən olan insanlar, ya da Rusiyadan kənar elementlər tərəfindən fiziki olaraq sıradan çıxarıla biləcəyini, bundan sonra FSB (FTX) direktoru Aleksandr Bortnikovun ölkədə hakimiyyətə iddialılardan birinə çevrilə biləcəyini mümkün sayır. O, Ukraynaya müdaxilənin Putinin dünyadakı nüfuzunu sarsıdan ciddi səhv olduğunu söyləyib. Onun fikrincə, Ukraynada müharibənin bitməsini sürətləndirə biləcək ən çox ehtimal olunan ssenari hərbi əməliyyatlardan məsafə saxlayan və hazırkı Kreml rejiminin bir üzvünün xeyrinə Putinə sui-qəsd ola bilər. Həmin şəxs Qərblə danışıqlara hazır olacaq. Keçmiş kəşfiyyatçı hadisələrin "dinc" inkişafı üçün alternativ variant qismində Putinə inamını itirmiş və Ukraynada müharibəni tam qələbəyə qədər davam etdirməyə çalışan təhlükəsizlik xidmətlərindəki millətçilərin hakimiyyəti ələ keçirməsini görür.

**O, Putinin könüllü istefa verə biləcəyini də istisna etmir:** "Bu addımın həlledici mərhələsi Rusiyada 2024-cü ilin martına təyin edilmiş prezident seçkiləridir". Başqa mümkün ssenariləri sadalayan Kristofer Stil Putinin hərbi çevriliş yolu ilə hakimiyyətdən uzaqlaşdırılmasını da mümkün sayır. Onun qənaətincə, ən az ehtimal olunan ssenari isə Putinin ya "Waqner" sahibi Yevgeni Priqojin kimi millətçi bir fiqur, ya da Rusiya müxalifətinin lideri Aleksey Navalnının tərəfdarının rəhbərlik etdiyi kortəbii xalq üsyanı ilə devrilə bilməsidir.







Bu versiyalardan hansı biri ən çox ehtimal olunandır? Daha bir sual: Putinsiz Rusiya öz mövcudluğunu saxlaya biləcəkmi?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu hesab edir ki, kim olursa-olsun, Putindən sonra hakimiyyətə gələcək şəxs Ukrayna ilə savaşı davam etdirməyəcək:** "Putinin xəstələnməsi və vəziyyətinin ağır olması xəbəri doğrudursa, bu təsdiqini taparsa, dünyadakı və bölgədəki proseslərə təsir etmək gücünə malik olacaq. Çünki Putin xəstələnərsə, bu və ya digər şəkildə vəzifəsindən gedərsə, Ukrayna müharibəsi böyük ehtimalla dayanacaq. Ona görə ki, Putinin yerinə gələcək istənilən lider bu müharibəni davam etdirməkdə maraqlı olmayacaq. Çünki bu müharibə Rusiyada böyük itkilərə səbəb olub. 200 mindən çox insan itirib, iqtisadiyyatı zərər görüb, inflyasiya dəhşətli miqyas alıb. Təsəvvür edin ki, bir dollar artıq yüz rubla gəlib çatıb.

Bu, Putinin şəxsi müharibəsi idi. Amma yeri gələrsə, bu onun şəxsi müharibəsi olmayacaq. Yeni gələn şəxs hansısa formada müharibəni dayandırmaq üçün danışıqlara getmək marağını ortaya qoyacaq. Putinin xəstəliyi təsdiqlənərsə, Rusiya daxilində hakimiyyət uğrunda mübarizə başlayacaq. Çünki ölkə rəhbərliyinə namizədlərin sayı çox olacaq. Bu baxımdan, Putinin xəstəliyi olsa belə, onu bir müddət gizlətməyə çalışacaq. Amma vəziyyəti ağırlaşarsa, o, varis seçimi etmək qarşısında qalacaq. Vaxtilə Yeltsin də hakimiyyəti Putinə belə təhvil vermişdi. 1996-cı ildə Yeltsin ürək əməliyyatı keçirdi və sağlamlığı yenə də düzəlmədiyi üçün müvəqqəti hakimiyyəti baş nazir Putinə ötürdü. İndi də Putin Yeltsinin taleyini yaşaya bilər. Kimi seçəcək, onu indidən söyləmək çətindir. O, elə birini seçməyə çalışacaq ki, yolunu davam etdirsin. Amma onun yolu da Rusiyada təlatümlər və xaos gətirir. Seçdiyi adam da inanmıram ki, Ukrayna ilə müharibəni davam etdirməkdə maraqlı olsun".

**Beynəlxalq münasibətlər üzrə şərhçi Şəhla Cəlilzadə Qərbin Putinə qarşı sui-qəsd arzuladığı qənaətindədir:** "Putin hakimiyyətdən getsə də, getməsə də, Rusiya Federasiyasının imperialist siyasətinin dəyişəcəyini düşünmək sadəlövhlük olar. Təbii ki, söhbət qərbyönümlü çevrilişdən getmir ki, bu da mümkünsüzdür. SSRİ dağılandan sonra Rusiya prezidenti olan Yeltsin nə qədər Qərbyönümlü olsa da, Qərbin Rusiyaya heç zaman öz kampında yer verməyəcəyini anladığı üçün özündən sonra hakimiyyətə Putini gətirdi. Putin 2000-2008-ci illərdə (2 dəfə 4 illik müddətinə) prezident olduqdan sonra bu postuna təkrar geri qayıtmaq üçün 2008-2012-ci illərin keçid dövründə imperiyanın idarəsini öz adamına - Medvedyevə təhvil verib sonra geri aldı. 2012-ci ildə Rusiyada qanuna edilən dəyişikliyə əsasən prezident 2 dəfə 6 illik müddətə seçilə bilərdi, yəni 2024-cü ilədək. Bu ssenaridə 2024-cü ildə yenə "hakimiyyət paslaşması" yaşana bilərdi ki, Putin növbəti 12 illik müddətdə heç kəsə pas atmağı düşünmür. Odur ki, 2020-ci ildə Rusiya Konstitusiyasına dəyişikliklər edildi. Dəyişikliyə görə, düzəlişdən öncəki prezidentlik dövrü sıfırlanır və beləliklə, Putinin 2036-cı ilədək hakimiyyətdə qala biləcəyi açıq şəkildə elan olunur.

Böyük ehtimal Putin 2024-cü il seçkilərini təkrar qazanacaq. Prezidentin mətbuat katibi Dmitri Peskov "The New York Times" nəşrinə müsahibəsində Putinin 90%-dən çox səslə təkrar seçiləcəyini bildirib. "Bizim prezident seçkilərimiz tam olaraq demokratiya deyil, bahalı bürokratiyadır" deyən Kreml sözçüsü Rusiyanın siyasi idarəetmə modelini aydın şəkildə, yalansız izah edib. O ki qaldı Qərbin xarici kəşfiyyatının təxminlərinə, bunlar təxmin yox, əməkdaşlığa dəvətdir və Putindən narazı kəsimləri Putinə qarşı sui-qəsdə açıq şəkildə çağırışdır. Çünki Putinin hakimiyyətdə olduğu müddətcə Rusiya-Ukrayna savaşında Qərbin tam və yekdil qələbəsi çətin və uzaq perspektivdə görünür. Nə Qərb, nə də Rusiyanın siyasi elitası dünyanın yeni nizamını formalaşdıran savaşdan məğlub ayrılmaq istəmir. Savaş dövründə isə ali baş komandan dəyişdirilmir. Odur ki, Qərb Putinlə istədiyi formatda danışıqların əldə olunacağından ümidlərini üzdüyü üçün artıq ona qarşı sui-qəsdin təşkilini arzu edir".

**Azad Vətən Partiyasının sədri Akif Nağı Putindən sonrakı Rusiyanı belə təsəvvür edir:** "Putinin hakimiyyətdən getməsi müzakirə olunan məsələlərdəndir. Onun xəstəliyi, çox "dvoyniki"nin üzdə olması ilə bağlı xeyli məlumatlar yayılır. Digər məlumatlara görə, yaxın ətrafı onu istefaya göndərməyə çalışır. Onun zorla devriləcəyi ilə bağlı da fikirlər səsləndirilir. Bu variantlardan xəstəlik məsələsi daha real görünür. Həm yaşı müəyyən həddə çatıb, həm də qabaqlar etdiyi kimi fiziki gücünü son vaxtlar nümayiş etdirmir.

Digər tərəfdən, o, iddialı, ambisiyalı, hakimiyyətpərəst adamdır, özbaşına görəvdən getməz. Xarici mərkəzlər də onun getməsini istəyir və bu istiqamətdə çalışırlar. Onlar da istəklərinə çatmasalar, əl çəkən deyillər. Putinsiz Rusiya böyük ehtimalla Qərbin əlavəsinə çevriləcək bir dövlət olacaq. Dövlətdən müəyyən qopmalar da mümkündür, yeni dövlətlər də yarana bilər. Amma Qərb kiçik dövlətlərin yaranmasında maraqlı deyil. Ona görə də Rusiyanın bütövlüyünü qoruyub saxlamağa çalışacaq. Digər ssenari isə Priqojin tipli bir hərbçinin hakimiyyətə gəlməsi, "vintcik"ləri möhkəmləndirib, Şimali Koreya kimi dövlət yaratmaq variantı da ola bilər. Amma Rusiyanın maddi, maliyyə, hətta hərbi potensialının tükənməsi baxımından bu variant real deyil. Ümumiyyətlə, Putindən sonrakı Rusiya kifayət qədər insansifətli dövlət olacaq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 142 (8278) 16 avqust 2023

**"Dünyanı dəhşətli bir partlayış gözləyir". Bunu Rusiyada yaşayan, əslən Azərbaycandan olan "Ekstrasenslərin döyüşü" şousunun altıncı mövsümünün finalçısı Zirəddin Rzayev deyib. O, dünyanı böyük bir fəlakətin gözləməsi ilə bağlı xəbərdarlıq edib.**

# Qiyamət gününün dəqiq tarixi - Allahın yazısını bəndə necə oxuya bilər?

## **İlahiyyatçı:** "Hətta Peyğəmbərin belə bir sualına cavabını bilmədiyini Allah vurğulayıb"

## **Astroloq:** "Belə şarlatanları medaiadan uzaqlaşdırmaq üçün hökumətin təpkisi lazımdır"

"Başqasına quyu qazma, özün düşərsən. Bizə yuxarıdan əmanət edilən hər şeyə xəyanət etdik. Acgöz, paxıl və eqoist məxluqlar yer üzünə nifaq, qəddarlıq və viranəlik səpiblər. İnsan nə etdiyini bilmir, amma etdiyi hər əməlin qarşılığını görəcək", - ekstrasens yaxınlaşan dəhşəti bu cür təsvir edib.

O qeyd edib ki, bu partlayış nüvə partlayışından fərqli olacaq. "Allahın qəzəbi təzahür edəcək", - azərbaycanlı görücü diqqətə çatdırıb.

Ekstrasens Zirəddin Rzayev vurğulayıb ki, taleyi dəyişmək olmaz. Qurtuluşun əsasında yalnız xeyirxahlıq və iman dayanır. Gözəllik və pul günahkar bir ruhun cəzasını azaltmayacaq. Cəzamızın nə vaxt veriləcəyi isə məlum deyil.

İslam dini belə proqnozlara necə baxır? Allahın qəzəbinin konkret vaxtını bəndə müəyyən edə bilərmi? ("İlahi cəza yaxınlaşır"). Qurani-Kərimdə bu xüsusda əlamətlər, dəlillər varmı?

**Dünşünas, ilahiyyatçı Fərid Abdulla mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini açıqladı. O dedi ki, əsrlər boyunca kahinlik bəşəriyyət arasında dominant qüvvələrdən olub:** "Keçən dəfə bir statistika oxumuşdum ki, Səudiyyə Ərəbistanında hər il qadınlar bu kahinlərə milyardan çox pul sərf edirlər. Əgər camaat arasında sorğu aparsanız, bəlkə də əksəriyyət sizə deyəcək ki, biz belə şeylərə inanmırıq. Bəs elədirsə, bu insanları əlləri içində saxlayanlar kimlərdir? Daha sonra isə hüquq-mühafizə orqanlarına şikayət edir və istədiklərini əldə edə bilmədikləri üçün kahinlik edənlərin həbs olunmasını istəyirlər.

Yəni kahinlik mənfi yüklü bir məsələdir. "Tur" surəsinin 29-cu ayəsində oxuyuruq: "(Onlara) xatırlat! Sən öz Rəbbinin neməti sayəsində nə kahinsən, nə də dəli!" Yəni sehrbazlıq, kahinlik və bu qəbil məsləklərlə məşğul olmaq Quran tərəfindən məzəmmət edilib. Bütün səmavi dinlər Qiyamət gününü xəbər verməkdə müttəfiq olublar. Ona görə də bəşəriyyəti maraqlandıran əsas məsələlərdən biri "Qiyamət nə vaxt qopacaq" sualı olub. Quran bu suala necə cavab verir? "Əraf" surəsinin 187-ci ayəsində oxuyuruq: "Səndən o Saat barəsində soruşurlar ki, nə vaxt qopacaq? De:



"Bu haqda bilgi ancaq Rəbbimə aiddir. (Qopacağı) vaxtı yalnız O aşkara çıxara bilər. (Bu bilgi) göylərə və yerə də ağır gəlir. O sizə qəflətən gələcək". Sanki onu bilirmişsən kimi səndən soruşurlar. De: "Bu haqda bilgi ancaq Allaha aiddir. Lakin insanların çoxu (bunu) bilmir".

Diqqət edin, hətta Peyğəmbərin belə bir sualın cavabını bilmədiyini Allah vurğulayıb. Yəni bu cür suallar vermək əbəsdir. Çünki bunu hətta aranızda ən bilikli, təmiz insan da bilmir. Yəni bu barədə kim bir iddia edərsə, onun iddiası əsassızdır".

Dinşünas "Loğman" surəsinin 34-cü ayəsinə də diqqət çəkir: "Həqiqətən, o Saat haqqında elm yalnız Allahdadır. Yağışı O yağdırır və bətnlərdə olanı O bilir. Heç kəs sabah nə qazanacağını belə bilməz; heç kəs harada öləcəyini də bilməz. Allah isə şübhəsiz ki, biləndir, xəbərdardır".

Sual verilə bilər ki, axı insanlar da müəyyən şeylərin proqnozunu və ya elmi nəticəsini verə bilərlər. Məsələ burasındadır ki, mütləq elm Allahın əlindədir. İnsan isə müəyyən əlamətlərdən sadəcə proqnoz verə bilər. O da Allah istəsə. Lakin bir məsələ də var. "Şura" surəsinin 30-cu ayəsində oxuyuruq: "Başınıza gələn hər bir müsibət öz əllərinizlə qazandığınız üzündəndir. (Allah isə) çoxunu bağışlayır".

Yəni bəşəriyyətin başına gələn müsibətlər öz əməllərinin məhsuludur. Ən təhlükəli varlıq hazırda insandır və oturub proqnoz qurmaqdansa, kahinlik etməkdənsə, ətrafdan məlumat toplamaqdansa, özünə baxmalıdır. Çünki nə baş versə, elə öz əməli üzündən baş verəcək. Allah heç kəsə zülm etməz. "Nəhl" surəsinin 118-ci ayəsində oxuyuruq: "Biz onlara zülm etmədik. Lakin onlar özləri özlərinə zülm edirdilər".

**Astroloq, araşdırmaçı jurnalist Səbuhi Rəhimli də mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini açıqladı. Onun fikrincə, öncəgörmə qabiliyyəti iki amildən - biri kamil bilik səviyyəsindən, digəri isə travmadan sonra əmələ gəlir:** "Travmadan sonra müəyyən dəyişikliklər olur, ağıllarına gələni yazırlar, emosiyalarını, arzularını proqnoz kimi qələmə verməyə başlayırlar. Çox təəssüf ki, 95 faiz insan məhz elə travma alanlardır. Vaxtilə ekstrasenslər ittifaqının sədri idim, o vaxt orada ekstrasensləri qəbul edirdim və orada gördüm ki, əksəriyyəti yalançı, fırıldaqçı, elmsizdir. Uzağa getməyək. İsrail Türkiyənin "Mavi Marmara" yardım gəmisinə hücum edib, qətllər törətmişdi. Mən o vaxt rəhbərlik etdiyim "Qoroskop" qəzetində elan verdim ki, ey öncəgörənlər, deyin görək necə olacaq? Az qala hamısı dedi ki, böyük müharibə olacaq, yüz mindən çox insan öləcək. Müharibə uzun illər davam edəcək. Mən yalnız dedim ki, İsrail Türkiyədən üzr istəyib, kompensasiya ödəyəcək. İl yarım sonra bunlar baş verdi.

Eləcə də Amerikada 11 sentyabrda qoşa binalar vurulan zaman da müraciət etdim. Əksəriyyəti yazdı ki, Amerika çökdü, filan. Daha sonra Kahramanmaraşda zəlzələ olanda da həmin ekstrasenslər çıxdı ortaya ki, hələ bu harasıdır, görün necə dəhşətli zəlzələlər olacaq. Apreldə, mayda İzmir yox olacaq. İstanbul yox olacaq. 2022-nin sentyabrında Ukrayna darmadağın olacaq, Polşanın yarısı gedəcək. Bəziləri var ki, sensasiya xətrinə təlaşlı proqnozlar verirlər. Mən özüm verdiyim proqnozların illik hesabatını aparıram. İldə 25 siyasi proqnoz verirəm. Bəzən olur 3-ü səhv çıxır, bəzən 4 olur, bəzən də ümumiyyətlə səhv olmur. Ona görə üzr istəyirəm, deyirəm ki, doğru hesablamamışam.

Amma onu da demişəm ki, 25 proqnozdan 10-u səhv çıxsa, heç vaxt proqnoz verməyəcəyəm. Şükür ki, hesablamalarda elə yanılmamışam. İndi belə adamlara yenə müraciət etdim ki, Ukrayna müharibəsi nə vaxt bitəcək? 20 günə, 3 günə, 15 günə bitəcək deyənlər oldu. Misal üçün, mən dedim ki, bilmirəm nə vaxt bitəcək. Burada astrologiya acizdir. Siyasi jurnalist kimi, müşahidələrim əsasında, dünyanın siyasi fiqurlarının rəyləri əsasında nə isə fikir yürüdə bilirəm. Amma onu da deyəndə elə bilirlər astroloq kimi deyirəm. Əsas işimin jurnalistika olduğunu bilmirlər. Onu kim deyə bilər Allahın qəzəbi özünü göstərəcək?! Təəssüf ki, alimlər NASA səviyyəsində də insanları təlaşda saxlamaqdan zövq alırlar. Asteroid gəlir, dağıdacaq hər yeri. Amma asteroid heç gəlib Yerə çatmır, yönünü dəyişir. Vanqa astroloji proqnoz verməyib, Nastadamus da bununla bağlı heç nə deməyib. Bunu deyirəm, Yutubda heç kim baxmır. Amma yalandan yazsan ki, Vanqa Qarabağla bağlı dəhşətli proqnoz verib, sentyabrda müharibə başlayacaq, bir milyon adam baxacaq. İnsanları elə hala salıblar ki, qorxu, təlaş istəyirlər.

Qirani-Kərimdə dünyanın sonu barədə yazılıb, amma insanlar haradan bilə bilər. Allahı görüblər ki, onun qəzəbindən də danışsınlar? 1999-cu ilin sonları idi, qohumgilə getmişdim, gördüm hamı adyala bürünüb həyətdə oturub. Dedilər ki, falçı Mələhət deyir ki, bu axşam Bakıda zəlzələ olacaq, bütün binalar uçacaq. Hökumətin təpkisi lazımdır belə şarlatanları medaiadan uzaqlaşdırsınlar".

**❑ Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# "Uşağına dayə baxacaqsa, onu niyə dünyaya gətirirsən?" - Elza Seyidcahan



**"İlhamə Quliyeva o vaxt dedi ki, Elza Seyidcahan yaxşı bəstəkardır, yaxşı şairə deyil. Sonra insanlar onun ağzından bu sözü götürüb tutuquşu kimi təkarar edirlər. Gəlib mənim bəstələrimi təhlil etsinlər. Heç onların mənim bəstələrimdən başı çıxmır. Elza Seyidcahan ciddi əsərlər bəstələyib. "Şəngülüm, şüngülüm" tamaşasına musiqi bəstələmişəm. Camaat lağa qoyub ki, "acam, ac ac". Bu sözlər mənim yox, Mikayıl Müşfiqindir. Yazıqlar heç bilmir ki, mən Mikayıl Müşfiqin pyesinə mahnı bəstələmişəm".**

Musavat.com-un xəbərinə görə, bu sözləri Əməkdar artist Elza Seyidcahan "BBC News Azərbaycanca"a müsahibəsində deyib.

**Müğənni yaradıcılığını, şeirlərini tənqid edənlərə cavab verib:**

"İnsanlar şeirlərimə acdır. "Karın könlündəki" məsəli... "Bir əlim dalımda, bir əlim qabağımda", "Qadın bir şey istəyir", "Tikim sizin ağzınızı" şeirlərimi yozdular. Onların içləri odlu, alovludur. İçləri erotikadan yanır. Niyə deyirəm, "Tikim sizin ağzınızı"? Mənası odur ki, pis söz danışmayın. İnsanlar hara yozdu? "Sevişin ki, çoxalasınız" - mənası odur ki, gecə biri gitarası, biri qələmi, biri royalı ilə sevişir. İnsanlar isə ancaq qadın-kişi münasibətinə yozdular. Əgər mən pianoda ifa edir, barmaqlarım royalla sevişirsə, bəstə yaranır".

**Seyidcahan oğlu Ələkbərin ona irad bildirməsindən söz açıb:**

"Oğlumun deməyində məntiq var. Heç kim istəməz ki, anasının arxasınca pis danışılsın. Amma indi qəbullanıb, heç nə demir. Özü də gördü ki, yaradıcılığım var".

**Qadın qətllərindən danışan müğənni bunda xanımları günahlandırıb:**

"Faciələrin qarşısını ancaq qadınlar özləri ala bilər. Qarşı tərəfi qıcıqlandırmamaq, özündən çıxartmamaqla. Kişi ilə uşağın kimi davranmalısan. Uşaq qaçır, qab sındırır, ana hər şeyə dözür... Kişilər uşaqlardan betərdir. Qadında beynin iki, kişidə bir tərəf işləyir. Kişini coşduranda əlindən xəta çıxır. Qadınların çoxu ailə yox, karyera xəstəliyindədir. Uşaqları dayəyə verirlər. Əgər uşağı dayəyə verəcəksənsə, niyə doğursan? Bu, nə zəmanədir? Bir qadın ki, ərin paltarını yumur... Dayə ərin paltarını, corabını yuyur. Sabah da əri alır arvadın əlindən. Sonra da deyir, dayə aldı ərimi əlimdən. Ərin paltarını özün yu, uşağa özün bax, bacarırsansa, işə də get. Əgər bacarmırsansa, otur evdə, işləmə".

# YENİ MÜSAVAT

**Son səhifə**

N 142 (8278) 16 avqust 2023

Avqust


## Bunları bilirsinizmi?

* Ən qısa müddətli müharibə 1896-cı ildə Britaniya ilə Zanzibar arasında baş verib. Bu müharibə cəmi 38 dəqiqə çəkib.
* Əhalisinin heyrətamiz çoxluğuna baxmayaraq Çində cəmi 200 soyad mövcuddur.
* Qədim Romada cərrahiyyə əməliyyatı zamanı xəstə ölürdüsə, həkimin əlləri kəsilirdi.
* Las-Veqasın kazinolarında divarda saat yoxdur.
* Alyaskanın bayrağı 1926-cı ildə rus-isveç əsilli 13 yaşlı Benni Benson tərəfindən hazırlanıb.
* Kapitan Kuk Antarktidadan başqa ayağı bütün materiklərə dəyən yeganə insandır.
* Siçovul dəvədən daha çox susuz qala bilər.
* Nil çayı tarixi boyu 2 dəfə donub- IX və XI əsrlərdə.
* Köpək balığının qarnında olan balalardan ən güclüsü digərlərini yeyir və tək dünyaya gəlir.
* Eskimosların dilində qar mənasını verən 20-dən çox söz var.
* Dünyanın nüvəsi ən azı Günəş qədər istidir.
* Böyüklük olaraq 1,3 milyon ədəd dünya bir araya gəlsə bir Günəş boyda olar.
* Dünyanın bu başından o biri başına tullanmaq lazım gələrsə bu sıçrayış 42 dəqiqə vaxt aparar.
* Yer kürəsi əhalisinin yarısı qarı yalnız şəkillərdə görür.
* Çində müəllimlər məktəbdə uşaqlara yatmağa 20 dəqiqə vaxt verirlər.
* Hər 5 nəfərdən 2-si sevdikləri ilə evlənir.
* Mütəmadi olaraq hansısa qaydaya 21 gün əməl etsəniz bu sizin üçün vərdişə çevriləcək.
* Aktrisa Sirli Henderson "Harri Poter" filmində 13 yaşlı ağlayan qız Mirtl rolunu oynaıb. Bu zaman onun 40 yaşı olub.
* Çarli Çaplinin bənzərləri yarışmasında Çaplin özü 3-cü yeri tutub.
* Koala gün ərzində 18-22 saat yatır.
* Plutonun sahəsi Rusiyanın sahəsindən kiçikdir.
* Dələlər də pişiklər kimi miyoldayırlar.
* 1-3 yaşlı uşaqlar göz yaşı olmadan ağlayırlar.
* Kolibri geriyə uçmağı bacaran yeganə quşdur.
* Con Rokfeller 100 milyon pul qazanmaq və 100 yaşında ölmək istəyirdi. O, 192 milyon pul qazanıb 97 yaşında ölüb.
* Tokioda zooparkdakı heyvanların insanlardan dincəlməsi üçün zoopark ildə 2 ay bağlanır.
* Körpələr gündə 400 dəfə, böyüklər isə 15 dəfə gülümsəyirlər.

# Mark Maskı idmana qeyri-ciddi münasibətinə görə qınayıb



**Mark Zukerberq döyüşdə onunla mübarizə aparmalı olan İlon Maskı idmana "qeyri-ciddi münasibət"inə görə qınayıb. Məlumata görə, Zukerberq İlonun əvvəlcə döyüşün tarixini təsdiqləmədiyini, daha sonra əməliyyata ehtiyacı olduğunu, indi isə həyətində məşq etmək istədiyini bildirib. İş adamı qeyd edib ki, Mask hələ də mübarizə aparmaqda qərarlıdırsa, onunla necə əlaqə saxlamaq lazım olduğunu bilir. O, həmçinin idmana ciddi yanaşan insanlarla yarışa girəcəyini əlavə edib.**

## Balıqçılar sahilə çıxan ağ balina ailəsini xilas ediblər



**Rusiyanın Kamçatka yarımadasında dənizdən sahilə atılan ağ balina ailəsi ölümlə üz-üzə qalıb. Son anda ağ balinaları sahildə olan balıqçılar görüblər. Onlar vedrə ilə su daşıyaraq balıqları ölümdən qurtarıblar. Daha sonra çətinliklə ağ balinaları dənizə geri qaytarmağa müvəffəq olublar.**

## Amerikalılardan velosipedlə gəzintiyə çıxan Baydenə: "Uzaq dur, sən faydasızsan..."



**Amerikalılar ABŞ-ın Delaver ştatında dincəlməyə qərar verən prezident Co Baydeni tənqid ediblər. Onlar yanğınların baş verdiyi Havay adalarına getməyən, əvəzində isə dincəlməyə üstünlük verən ABŞ dövlət başçısına etirazlarını bildiriblər.**

"The Daily Mail" nəşrinin jurnalistləri C.Baydeni küçədə velosiped sürərkən görüblər. Media işçiləri siyasətçidən yanğından zərər çəkmiş ştata səfər edib-etməyəcəyini soruşublar.

"Biz bu məsələni araşdırırıq", - deyə Bayden formal olaraq cavab verib və ayaq saxlamadan velosipedin pedalını çevirərək ərazidən uzaqlaşıb. ABŞ prezidentinin bu davranışı nəşrin oxucularını qəzəbləndirib və onlar etirazlarını dilə gətiriblər. "Uzaq dur. Sən faydasızsan", "Bu dəli ancaq velosipeddə gəzir", "Dünyada heç nə ilə maraqlanmır", - deyə oxucular müxtəlif şərhlər gəlib.

Vətəndaşlar C.Baydenin son üç ildə çox tez-tez məzuniyyətə getməsinə də qəzəbləniblər. Onlar bunun dövlət başçısı üçün qəbuledilməz olduğunu hesab ediblər.

## 340 min toyuq məhv ediləcək - XƏSTƏLİYƏ GÖRƏ

**● İsveçin ən böyük yumurta istehsalçısı "CA Cederqrens" quşçuluq fermasında salmonella virusu qeydə alınıb, bu səbəbdən 340 min toyuq məhv ediləcək. Bu barədə SVT telekanalı məlumat yayıb. "Cedergrens" ümumi yumurta istehsalının təxminən 20%-ni təşkil edir. Aprel ayında məhsullarda zərərli bakteriya aşkar olunduğu üçün tədarükdə növbəti fasilə yaranıb.**

Qeyd edək ki, salmonellalar salmonelyoz adlanan infeksion xəstəliyin törədicisi kimi tanınır. Qida zəhərlənmələrinin əsas törədicilərindən biri sayılan salmonellalar heyvan mənşəli qida məhsullarının istehsal və ya istehlakı dövründə sanitar-gigiyenik qaydalara əməl edilmədikdə həmin məhsulların tərkibində geniş yayılır. Xüsusilə də quşçuluq məhsulları (quş əti, yumurta və s.) bu bakteriya növünün əsas daşıyıcısıdır.

# Yuxudan oyandıqdan dərhal sonra niyə qəhvə içmək olmaz?



**Yuxudan oyandıqdan sonra bir saat ərzində qəhvə içmək zərərlidir. Bunu ailə həkimi Tatyana Zaxarova deyib. Həkimin fikrincə, ilk qəhvə qəbulu sayıqlıq səviyyəsinə təsir edə və ya kofeinə tolerantlığı artıra bilər.**

"Oyandığımız zaman kortizol səviyyələrimiz ən yüksək həddə çatır. Tez-tez stresslə əlaqəli olan kortizol diqqətlilik səviyyəsini artırır. Beləliklə, kortizol səviyyələri artıq yüksək olduqda kofein istehlakı bunun əleyhinə işləyə bilər və ya hətta kofein tolerantlığının yaradılmasına kömək edə bilər", - həkim deyib.

O, bir doza kofein qəbul etməzdən əvvəl oyandıqdan sonra ən azı bir saat gözləməyi məsləhət görür.

Zaxarovanın sözlərinə görə, yuxuya zərər verməmək üçün son qəhvə qəbuluna saat 14:00-da icazə verilir. Həkim izah edib ki, bir fincan qəhvə içdikdən beş-yeddi saat sonra belə, kofeinin yarısı hələ də bədəndə qalır. Həkim qəhvədən qətiyyən imtina etməyi məsləhət görmür, çünki bu içki Alzheimer xəstəliyi kimi neyrodegenerativ xəstəliklərə qarşı təsirlidir.

## Kökəlməyə qoymayan yağlı qidalar

**Bəzi yüksək yağlı qidalar arıqlamağınıza kömək edə bilər. Bunu dietoloq Mariya Kapralova deyib.**

Həkim qeyd edib ki, belə məhsullardan biri də avokadodur. Bu məhsul güclü antioksidant kimi çıxış edir və toksinləri bədəndən çıxarmağa, həmçinin qanda xolesterinin səviyyəsini aşağı salmağa kömək edir. O, həmçinin əlavə edib ki, avokado xərçəng hüceyrələri ilə mübarizə aparmağa kömək edir. Həkim qoz-fındıq yeməyi də daha çox məsləhət görüb. Fındıq çox doyurucudur, bu da iştahanı idarə etməyə və həzmi yaxşılaşdırmağa kömək edir.

## İki litr su içən qadın öldü



**ABŞ sakini 20 dəqiqə ərzində iki litr su içib. Bu, onun huşunu itirməsinə və ölümünə səbəb olub.**

Məlumata görə, 35 yaşlı Eşli Sammers ailəsi ilə ABŞ-ın İndiana ştatındakı Frimen gölündə istirahət edirmiş. İstidən qadın güclü susuzluq hiss edib. Qardaşı Devon Millerin sözlərinə görə, amerikalı 20 dəqiqə ərzində hər biri 473 millilitr olmaqla, dörd şüşə su içib. Ümumilikdə onun içdiyi suyun miqdarı iki litrə yaxın olub.

## Tornadonun vahiməli görüntüləri: ölənlər və yaralananlar var



**Çinin Yançen əyalətinin Szyansu şəhərində güclü tornado baş verib. Nəticədə iki nəfər ölüb, 15 nəfər yaralanıb. Həmçinin 283 ev dağılıb. Hazırda yerli hökumət zərərlə üzləşən sakinlərin köçürülməsi və onlara köməklik göstərilməsi üzərində işlər aparır. Qorxunc tornadonun görüntüləri sosial şəbəkələrdə gündəm olub.**

Səhifəni hazırladı: SELCAN


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Sifariş: 2099
Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.